# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 may
2025-ci il,
şənbə
№ 089 (6916)
Qiymәti
60 qəpik




Milli azadlıqdan
şirin nemət yoxdur!



# Hədəf qlobal müstəvidə aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir

## İlham Əliyev: Ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Heç kim bundan sığortalı deyil

Bax səh. 2

# QAYIDIŞın ilk addımları...

## Mənəvi varlığımızın, tarixi yaddaşımızın dirçəldilməsi

Bax səh. 3



## Milli Məclisin iclasında... 13 məsələ müzakirəyə çıxarıldı

Bax səh. 4

## Minimum istehlak səbətinin tərkibinə yenidən baxılır

### “Yaşayış minimumu haqqında” qanununda dəyişikliklər sosial rifahın yaxşılaşmasını nəzərdə tutur

Bax səh. 4



## İnkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin təcəssümü - Möminə xatun türbəsi

Bax səh. 2

## Qayıdış hüququ uğrunda!

Ermənistan Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı mövzusunun beynəlxalq müstəviyə çıxarılmasından təşvişə düşüb. Bir neçə gün öncə Türkiyənin paytaxtı Ankara şəhərində Qərbi Azərbaycan İcmasının və “Azərbaycan-Türkiyə Evi” İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfransın keçirilməsi, Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciət etməsi rəsmi İrəvanda “ciddi narahatlıq” yaradıb.

**Ani Badalyanın yanlış şərhi...**

Belə ki, Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ani Badalyan “Armenpress”in sualını cavablandırarkən deyib ki, “Ermənistan Respublikasının ərazisində “Qərbi Azərbaycan” yoxdur, Qərbi Azərbaycan Azərbaycan Respublikasının qərb rayonlarıdır”. Erməni tərəfi Qərbi Azərbaycan məsələsini guya Ermənistana qarşı ərazi iddiası hesab edir.

Əslində, bu iddiaların heç bir əsası yoxdur. Çünki Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasında insanların Ermənistan Respublikasının vətəndaşı olaraq doğma yurdlarına dönməsi nəzərdə tutulur. Qərbi azərbaycanlılarının doğma yurdlarına qayıtması onların fundamental haqqıdır və bu da beynəlxalq hüquqla təsbit olunub...

Bax səh. 4

## Rəqəmsal sektorun uğuru

İnnovasiya iqtisadiyyatı üzrə araşdırma platforması olan “StartupBlink” 2025-ci il üçün Qlobal Startap Ekosistemi İndeksini açıqlayıb. Son dörd ilin hesabatlarında ardıcıl yüksəliş nümayiş etdirən Azərbaycan cari ildə ən yüksək nəticəyə nail olub. Belə ki, ölkəmiz qlobal reytinqdə 2024-cü illə müqayisədə 6 pillə irəliləyərək 74-cü yerdə qərarlaşıb. Ekosistemin illik artım tempi 24 faiz təşkil edib ki, bu da Mərkəzi Asiya regionunun ən yüksək göstəricisidir.

Azərbaycanın əldə etdiyi digər uğurlu göstərici Bakının reytinqdə “İlin şəhəri” olaraq seçilməsidir. Paytaxt şəhər, xüsusilə elektron kommersiya, pərakəndə satış, təhsil, həmçinin sosial-əyləncə sektorunda innovativ texnologiyaların tətbiqi üzrə rəqiblərindən öndədir. Hesabatda startap ekosisteminin ümumi icmalı da verilib. Bu xüsusda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) aparıcı dövlət qurumu olaraq yerli ekosistemin inkişafı, innovasiyaların təşviqi və rəqəmsallaşma istiqamətində həyata keçirdiyi fəaliyyət vurğulanıb.

**Dünya startap ailəsində Azərbaycanın yeri**

Son illərdə ölkəmizdə innovasiya infrastrukturunun yaradılması, texnoparkların inkişafı, innovativ layihələr üçün maliyyə mexanizmlərinin əlçatanlığının artırılması, İKT sahəsində insan kapitalının yetişdirilməsi sahələrində müsbət meyillər açıq müşahidə edilməkdədir. Azərbaycanlı startapçılar biznes ideyaları...

Bax səh. 5

## Aİ Macarıstanı növbəti dəfə hədəfə alır

Avropa İttifaqı Şurası mayın 27-də Avropa İttifaqı haqqında Müqavilənin 7-ci maddəsinə uyğun olaraq Macarıstanın “Birlikdə səsvermə hüququ”ndan məhrum edilməsi məsələsinə dair dinləmələr keçirəcək. Məlumat qurumun saytında yerləşdirilib - bildirilir ki, Nazirlər Avropa Parlamentinin təşəbbüsü ilə 7-ci maddə proseduru çərçivəsində Macarıstan üzrə səkkizinci dinləməni keçirəcəklər. Qeyd edək ki, Avropa İttifaqı haqqında Müqavilənin 7-ci maddəsi ümumi dəyərlərə zidd hərəkətlərlə əlaqədar Birlik dövlətlərinin müəyyən hüquqlarının, o cümlədən ölkənin Aİ Şurasındakı nümayəndəsinin səsvermə hüququnun dayandırılmasının mümkünlüyünü nəzərdə tutur. Bundan əvvəl Britaniyanın “Financial Times” qəzeti yazıb ki, bir çox Aİ rəsmiləri Budapeştin Birliyin ilk növbədə Rusiya ilə bağlı əsas qərarlarına mane olmaq qabiliyyətinə görə Macarıstanın səsvermə hüququndan məhrum edilməsi məsələsini müzakirə ediblər.

**Macarıstan “xora” qoşulmur...**

Məsələnin mahiyyətinə keçməzdən öncə qeyd edək ki, bu qərarın verilməsi “zərurəti” Aİ-nin Rusiyaya təzyiq məqsədilə həyata keçirməyə çalışdığı bir sıra planlarla sıx əlaqəlidir. Başqa sözlə, Aİ Ukraynaya “yardım” adı altında dövlətlərin daha çox “dəstək verməsi” və ya silahlanmaya kömək etməsi məqsədilə...

Bax səh. 6

## Beşinci raund...

İran İslam Respublikası uzun müddətdir nüvə fəaliyyətinə görə Qərbin genişmiqyaslı sanksiyaları ilə üzləşib. ABŞ İranın nüvə proqramını qlobal təhlükəsizliyə təhdid kimi dəyərləndirir. Rəsmi Tehran isə proqramın reallaşdırılmasının onun üçün hədəf olduğunu bildirir. Nüvə proqramına görə tətbiq olunan sanksiyalar əsas etibarı ilə qonşu dövlətin neft ixracının məhdudlaşdırılmasını əhatə edir.

Donald Tramp ABŞ-da hakimiyyətə qayıtdıqdan sonra İranla nüvə danışıqları bərpa edilib. Belə ki, ABŞ və İran Omanın vasitəçiliyi ilə Tehranın nüvə proqramı ilə bağlı fikir ayrılıqlarını həll etmək üçün dörd raund danışıqlar aparıb. Onlardan üçü - aprelin 12-si, 26-sı və mayın 11-də Maskatda, digəri isə aprelin 19-da Romada baş tutub. Danışıqlarda İran nümayəndə heyətinə xarici işlər naziri Abbas Əraqçi, Amerika nümayəndə heyətinə isə prezidentin xüsusi nümayəndəsi Stiv Uitkoff başçılıq edib. İran-ABŞ danışıqlarının beşinci raundu isə Romada reallaşıb.

**Xamenei: Vaşinqtonun tələbi qəbuledilməzdir**

Beşinci görüş ərəfəsində İranın Ali rəhbəri Ayətullah Seyid Əli Xamenei Tehranın nüvə proqramı ilə bağlı böhranın həlli istiqamətində ABŞ-la aparılan danışıqların effektivliyinə şübhə ilə yanaşdığını bəyan edib. Bu barədə Xameneinin mətbuat xidməti məlumat...

Bax səh. 7



## Vatikan təşəbbüsü üzərinə götürür

Bax səh. 6



## Onlar Harvardı “bitirməyəcəklər”...

Bax səh. 7

# Hədəf qlobal müstəvidə aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir

## İlham Əliyev: Ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Heç kim bundan sığortalı deyil

## Prezident TDT-nin daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstanın daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev daxildir.

Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşünün Azərbaycanda keçirilməsi sevindirici haldır və belə görüşlərin davamı olacağına əminliyini ifadə edib: "Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü iki gün bundan əvvəl Macarıstanda keçirilmişdir. Bildirməliyəm ki, belə tədbirlərin, belə görüşlərin keçirilməsi Azərbaycan tərəfinin təşəbbüsü idi. Birinci qeyri-rəsmi Zirvə görüşü ötən il Azərbaycanda, Qarabağda, Şuşa şəhərində keçirilmişdir. Dövlət və hökumət başçıları qərara gəldilər ki, belə qeyri-rəsmi görüşlər müntəzəm olaraq keçirilsin.

Bizim rəsmi Zirvə görüşlərimiz hər il keçirilir. Amma hesab etdik ki, ildə bir dəfə bu tərkibdə görüşlər kifayət deyil. Bildirməliyəm ki, bu il Azərbaycanda rəsmi Zirvə görüşü keçiriləcək. Bu görüşə ciddi hazırlıq gedir və əminəm ki, Zirvə görüşü zamanı önəmli qərarlar qəbul ediləcək".

Təşkilata üzv və müşahidəçi ölkələrin ortaq maraqları olduğunu söyləyən dövlətimizin başçısı vurğulayıb ki, biz nəinki dost, strateji tərəfdaş, müttəfiqik və başlıca amil odur ki, qardaş ölkələrik və təşkilatın təməlində məhz bu prinsip dayanır: "Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur. Təşkilata üzv ölkələrdə daxili sabitlik təmin edilir. Bizim böyük coğrafiyamız var. Təşkilata üzv bəzi ölkələrdə zəngin təbii sərvətlər vardır. Bizim nəqliyyat layihələrimiz ölkələrimizi birləşdirir və hətta daha böyük coğrafiyanı əhatə edir. Ölkələrimizin ərazisindən keçən nəqliyyat dəhlizləri Avropanı Asiya ilə birləşdirir. Bir sözlə, iqtisadi sahədə çox böyük potensialımız var. Əgər buna bizim müsbət demoqrafik dinamikanı əlavə etsək, mənzərə daha ürəkaçan olacaq.

Bizim ölkələrimizdə əhali artır. Azərbaycana gəldikdə, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə bizim əhalimiz təqribən 7 milyon idi, indi 10 milyonu ötüb. Bütün üzv ölkələrdə buna oxşar dinamika müşahidə olunur. Əhalimiz gəncdir, dinamikdir, öz tarixi köklərinə bağlıdır. Ona görə biz təşkilat çərçivəsində iqtisadiyyat, nəqliyyat, enerji məsələləri ilə yanaşı, mütləq ortaq köklərimiz, ortaq tariximiz haqqında geniş danışmalıyıq.

Tarixdə müxtəlif məqamlar olub. Biz müəyyən dövr ərzində bizdən asılı olmayan səbəblərə görə bir-birimizdən ayrı düşmüşdük. Ancaq təşkilata üzv olan ölkələrin iradəsi, xalqların iradəsi bizi yenə də bir araya gətirdi. Əlbəttə ki, təşkilatın formalaşmasında, inkişafında tarixi Naxçıvan Zirvəsi xüsusi yer tutur. Biz çox şadıq ki, bu tarixi qərar məhz Azərbaycanın qədim şəhəri olan Naxçıvanda qəbul edilmişdir".

Daxili işlər orqanlarının birgə fəaliyyətindən söz açan Prezident İlham Əliyev buna böyük ehtiyacın olduğunu bəyan edib: "Çünki qeyd etdiyim kimi, ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Yəni heç kim bundan sığortalı deyil. Ona görə daxili işlər orqanlarının əsas vəzifəsi olan ictimai asayişin qorunması, əlbəttə ki, hər bir ölkəmiz üçün önəmli daxili sabitlik amilidir. Təşkilata üzv ölkələrin daxili işlər orqanlarının bir araya gəlməsi, müntəzəm olaraq görüşlərin keçirilməsi, fikir mübadiləsi, təcrübə mübadiləsi, informasiya mübadiləsi aparılması böyük önəm daşıyır.

Təbii ki, bizim əsas məqsədimiz təşkilatı daha da gücləndirməkdir. Mən tam əminəm ki, əgər bütün üzv və müşahidəçi ölkələr güclü vahid iradə göstərsələr, bizim təşkilatımız dünya miqyasında aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilə bilər. Biz dünyada mövcud olan beynəlxalq təşkilatları yaxşı tanıyırıq. Biz bəzi təşkilatlara üzvük, bəzi təşkilatlarla müxtəlif formatlarda əməkdaşlıq edirik və Türk Dövlətləri Təşkilatının üstünlüyünü biz şəxsən Azərbaycanda açıq-aydın görürük. Yenə də bu üstünlük ondan ibarətdir ki, bizi birləşdirən əsas amil tarixi köklərdir, etnik köklərdir, mənəvi dəyərlərdir və təbii ki, qeyd etdiyim kimi, bizim iqtisadi, sənaye və digər sahələrdəki potensialımız. Bütün bunları biz bir araya gətirmişik, təşkilatı strukturlaşdırmışıq, müxtəlif istiqamətlər üzrə fəal işlər gedir. Hesab edirəm ki, indi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaq, nəinki təşkilatın coğrafiyasında və onun həndəvərində, qlobal müstəvidə dünyada aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir. Yenə də deyirəm, bunlar üçün bütün imkanlar var. Əgər olmasaydı, mən bu barədə danışmazdım".



Mən sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizə uğurlar arzulayıram. Təmsil etdiyiniz ölkələrin xalqlarına öz hörmətimi bildirirəm və Sizə uğurlu iş və gözəl nəticələr arzulayıram.

Sonra çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev qəbula görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirib: "Siz qeyd etdiyiniz kimi, bu, daxili işlər nazirlərimizin ikinci görüşüdür. Birincisi keçən il Qırğızıstanda olub. Siz qeyd etdiniz ki, hörmətli nazirlərimiz görüşürlər, onlar daha çox mahiyyətə diqqət yetirirlər. Bu gün də Kommünike hazırlanıb. Bundan sonra da belə görüşlər keçiriləcək və orada daxili işlər nazirlərinin fəaliyyətinin əsas istiqamətlərini ehtiva edən Kommünike qəbul olunacaq. Bu, banditizm, terrorizm, cinayətkarlıq və sairə ilə mübarizə daxil olmaqla nazirlərimizin fəaliyyətinin bütün istiqamətlərini əhatə edir.

İki gün əvvəl vaxtilə Sizin təşəbbüskarı olduğunuz qeyri-rəsmi Zirvə görüşümüz keçirildi. O, mahiyyət etibarilə qeyri-rəsmi deyil, daha çox rəsmi idi. Orada da hüquq-mühafizə orqanlarımızın işindən bəhs edildi. Siz də qeyd etdiniz ki, keçən il ilk dəfə Şuşada ali məhkəmə instansiyalarımızın görüşü oldu. Ali məhkəmələrin sədrləri bu yaxınlarda - iki həftə əvvəl Antalyada yenidən toplaşdılar və nizamnamə qəbul etdilər. Orada da bütün fəaliyyət istiqamətləri göstərilib. Bizdə artıq baş prokurorlar, notarial orqanlar, ədliyyə nazirlərinin platformaları yaradılıb, keçən il ədliyyə nazirləri də Astanada bir araya gəldilər.

Bir sözlə, bütün hüquq-mühafizə bloku institutlaşmaya başlayıb, artıq ilk addımlar atılır. Sizin parlamentdəki inaqurasiya nitqinizdə qısaca qeyd etdiyiniz kimi, hamı bunu dəstəkləyir. İndi Sizin dediyiniz kimi, bizim təşkilat daha güclü ola bilər. Biz həqiqətən nadir beynəlxalq təşkilatıq. Siz qeyd etdiyiniz kimi, 15 il əvvəl qəbul edilən Naxçıvan Sazişində deyilir ki, bizi məhz tarixi köklər, mədəniyyətimiz, dil, din birləşdirir. Çünki başqa belə bir təşkilat yoxdur və bizim hamımızın vəzifəsi yaradılmış platformalarla onu gücləndirməkdir".

# İnkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin təcəssümü - Möminə xatun türbəsi

**Bu günlərdə Prezident İlham Əliyev tarixi irs nümunələrimizlə bağlı daha bir mühüm sənəd imzalayıb. Söhbət dövlətimizin başçısının imzaladığı "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" Sərəncamdan gedir. Sərəncama əsasən, Möminə xatun türbəsində bərpa və konservasiya işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 (bir) milyon manat vəsait ayrılması nəzərdə tutulub.**

## Tarixi irs nümunələrinə həssas yanaşma

Azərbaycan xalqının yüz illiklər boyunca keçdiyi yol tarixi irs nümunələrində öz əksini tapıb. Bu irs nümunələri keçmişimizlə bu günümüz arasında körpü rolunu oynayır və milli vəhdətimizi təmin edir. Bir sıra xalqlar özləri barəsində qondarma tarixlər yaradırlar. Azərbaycan xalqının isə öz keçmişi ilə bağlı miflər uydurmasına heç bir lüzum yoxdur. Ökəmizin ərazisində olan çoxlu sayda tarixi mədəni-dini irs nümunələri xalqımızın milli kimliyini, bu yerlərin aborigen etnosu olduğunu əyani şəkildə təsdiqləyir. Buna görə də tarixi irs nümunələrinin qorunması və gələcək nəsillərə ötürülməsi son dərəcə vacibdir. Hazırda respublika ərazisində 27 dövlət, mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu fəaliyyət göstərir ki, bu da tarixi irs nümunələrimizin zənginliyini əyani şəkildə təsdiqləyir.

Azərbaycan dövləti ölkə ərazisində olan tarixi mədəni-dini irs nümunələrinin qorunmasına son dərəcə həssas münasibət sərgiləyir. Bu siyasətin əsası böyük siyasətçi Heydər Əliyev tərəfindən qoyulub. Onun təşəbbüsü ilə qəbul edilmiş 1998-ci il 10 aprel tarixli "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu bu sahədə hüquqi bazanın formalaşmasını təmin edib.

Sonrakı mərhələdə isə tarixi irs nümunələrinə davamlı və məqsədyönlü qayğı siyasəti Prezident İlham Əliyevin siyasi qətiyyəti sayəsində eyni ardıcıllıqla davam etdirilib. Belə ki, dövlətimizin başçısı müxtəlif illərdə tarixi irs nümunələrinin qorunması və bərpası ilə bağlı çoxlu sayda sənədlər imzalayıb. Bu sırada "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası", "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası və "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nı xüsusi qeyd edə bilərik. Tarixi irs nümunələrinin qorunmasında, bərpasında və təbliğində institusional strukturların yaradılması da mühüm əhəmiyyətə malikdir. O cümlədən Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması, həmçinin Xidmətin regional strukturlarının formalaşdırılması bu istiqamətdə yeni bir başlanğıc olmuşdur.



Tarixi mədəni-dini irs nümunələrinin qorunmasında, həmçinin Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da yaxından iştirak edir. Fondun rəhbəri Mehriban xanım Əliyevanın ardıcıl səyləri sayəsində bir sıra tarixi-mədəni irs nümunələrimiz UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Fond tərəfindən ölkə ərazisində çoxlu sayda tarixi mədəni-dini abidələrin bərpası layihələri uğurla tamamlanıb. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə belə layihələr həmçinin postmüharibə mərhələsində azad Qarabağda da həyata keçirilir.

## Dünya əhəmiyyətli mədəni irs nümunəsi

Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanda zaman-zaman zəngin mədəniyyətimizin mühüm bir qolu formalaşıb. Burada bu gün də öz əhəmiyyətini qoruyub saxlayan nadir tarixi mədəni-dini abidələr yaradılıb. Bu sırada Yusif Küseyir oğlu türbəsi, Əlincəqala, Qarabağlar Türbə Kompleksi kimi nadir irs nümunələrini qeyd edə bilərik. Ordubad rayonunun ərazisi Qədim Daş dövründən başlayaraq son orta əsrlərə qədərki dövrə aid abidələrlə zəngindir. Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Qapıcıq dağının cənub-şərq yamacındakı Qaranquş yaylağında Tunc və İlk Dəmir dövrlərinə aid edilən, üzərində ov və rəqs səhnələri, müxtəlif işarələr və damğalar olan qaya parçaları aşkar edilmişdir ki, bu da əcdadlarımızın həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini izləməyə imkan verir.

Naxçıvanın zəngin tarixi irs nümunələri sırasında Möminə xatun türbəsinin xüsusi yeri var. Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. XII əsrin görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir və monumental sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə İslam aləminin şah əsərləri sırasında fəxri yer tutur. Sərəncamda vurğulandığı kimi, misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınıb.

*Mübariz FEYİZLİ*

# Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdam şəhərində keçirilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası mayın 23-də Ağdam şəhərində keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli inkişaf strategiyasını müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərin davam etdirildiyini bildirib.

Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində Ağdam rayonu da daxil olmaqla, işğaldan azad olunmuş bütün ərazilərin sürətlə dirçəldiyini və inkişaf etdiyini diqqətə çatdıran Qərargah rəhbəri deyib ki, burada dağıdılmış infrastruktur bərpa olunur, kəndlər və şəhərlər yenidən qurulur, həyat getdikcə daha çox canlanır. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 500-dən çox tədbirdə iştirak edib, müxtəlif təyinatlı 159 layihənin təməlini qoyub, 133 infrastruktur obyektinin açılışını edib.

Bildirilib ki, Böyük Qayıdış proqramının uğurlu icrası və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində mühüm işlər görülür, işğaldan azad olunmuş ərazilərdəki 14 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qayıdışı artıq təmin edilib. Bütövlükdə, hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 43 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, dayanıqlı məskunlaşmaya nail olmaq üçün geri qayıdan keçmiş məcburi köçkünlərin məşğulluq məsələlərinin həlli əsas hədəflərdən biridir. Bu məqsədlə kənd təsərrüfatı sahəsində fəaliyyətin genişləndirilməsi, biznes mühitinin stimullaşdırılması və iqtisadi fəallığın təşviqi istiqamətlərində zəruri tədbirlər görülür. Artıq Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədilə istifadəyə verilməsi üçün icarə müqavilələri bağlanır, işğaldan azad olunmuş ərazilərdə yaradılmış sənaye məhəllələrində sahibkarlıq fəaliyyəti genişləndirilir və investisiyalar cəlb edilir.







Qərargah rəhbəri işğaldan azad edilmiş ərazilərdə şəhər-kənd inteqrasiyasının gücləndirilməsi və regionların digər ərazilərlə dayanıqlı əlaqəsinin təmin olunması məqsədilə nəqliyyat infrastrukturunun qurulması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini qeyd edib. Hazırda ümumi uzunluğu 2644 kilometrə çatan 40 avtomobil yolunun inşası davam etdirilir, uzunluğu 224,1 kilometr olan 7 yolda işlər artıq yekunlaşıb.

İşğaldan azad edilmiş ərazilərin inkişafı və yeni yaşayış məntəqələrinin salınması məsələlərinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu xatırladan Samir Nuriyev bu prosesin yalnız fiziki məkanların qurulması ilə məhdudlaşmadığını, eyni zamanda, sosial, iqtisadi, ekoloji və hüquqi aspektləri özündə birləşdirən çoxşaxəli və kompleks yanaşmanı tələb edən bir proses olduğunu vurğulayıb.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində, habelə Proqram çərçivəsində əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, nəqliyyat infrastrukturunun yaradılması, sərnişindaşıma və rabitə xidmətlərinin təşkili, ərazilərdə şəhərlərin və digər yaşayış məntəqələrinin yenidən qurulması və bərpası sahələrində görülən işlər barədə məruzələr dinlənilib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilər üzrə xüsusi nümayəndəliklərinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə məlumatlar təqdim edilib.

İclasın sonunda Qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə mühüm əhəmiyyət verdiyini bildirib, dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində müvafiq tapşırıqları iştirakçıların diqqətinə çatdırıb.

Səfər çərçivəsində Ağdam şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə, Ağdam Muğam Mərkəzinə və Ağdam İmarət Kompleksinə baxış keçirilib.

İnşasına ötən ildən başlanılmış 2-ci yaşayış məhəlləsi ilə tanışlıq çərçivəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi tərəfindən qeyd olunub ki, hazırda 11 kvartalda 66 binanın tikinti işləri davam etdirilir. Məhəllədə ümumilikdə, 60 yaşayış, 6 qeyri-yaşayış binası olmaqla, 1268 mənzilin, həmçinin qazanxananın, uşaqlar üçün əyləncə mərkəzinin, idman meydançalarının inşası nəzərdə tutulur.

Daha sonra Ağdam Cümə məscidi ziyarət edilib. İşğal dövründə - 2000-ci il mayın 9-da Ümummilli Lider Heydər Əliyevə təqdim olunmuş daş parçasının aid olduğu məscid Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilib. Məscidin qırıq minarəsi və içindəki daşları, giriş qapısı bərpa olunub, fasadı tarixi görkəminə uyğun restavrasiya edilib.

Sonda dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanı ilə yaradılmış Ağdam Sənaye Parkına yola düşən Əlaqələndirmə Qərargahının üzvləri burada sahibkarlıq subyektləri üçün təmin edilmiş şəraitlə tanış olublar. Sənaye Parkı barədə məlumat verən iqtisadiyyat naziri vurğulayıb ki, 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı rezidentlərin sayına görə ölkədə ikinci sənaye parkıdır. Burada ümumilikdə 31 olmaqla, 27 müəssisə rezident, 4 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Sənaye Parkında divar kağızının istehsalçısı olan "Mister Decor", rabitə və işarəvermə, mikroprosessor mərkəzləşmə sistemi avadanlığı istehsalçısı olan "Rail Trans Service", orta və aşağıgərginlikli qurğu, monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün şarjdoldurma avadanlığı istehsalçısı olan "Eel Electric" və təhlükəsizlik ayaqqabıları, poliuretan çəkmələr istehsalçısı olan "BAFCO İnvest" məhdud məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti barədə məlumatlar təqdim olunub.

# QAYIDIŞın ilk addımları...

## Mənəvi varlığımızın, tarixi yaddaşımızın dirçəldilməsi

## İrəvan Qazılığının fəaliyyəti bərpa olunub

**Tarixi ədalətin bərpası - zamanında indiki Ermənistanın yerləşdiyi yurd yerlərimizdən zorla çıxarılan soydaşlarımızın qayıdış hüququn təmin edilməsi istiqamətində daha bir mühüm addım atılıb. Belə ki, İrəvan Qazılığının fəaliyyəti bərpa olunub. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Bakıda keçirilən iclasında Bəxtiyar Nəcəfovun İrəvan qazısı vəzifəsinə təyinatı məsələsi müzakirəyə çıxarılıb və səsvermə ilə müvafiq qərar qəbul edilib.**

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bildirib ki, bu təyinat İrəvan bölgəsində dini fəaliyyətin yenidən təşkili, tarixi-mənəvi irsin qorunması və dini dəyərlərin yaşadılması baxımından mühüm əhəmiyyətə malikdir. İrəvan Qazılığı hələlik QMİ-nin binasında yerləşəcək.**

### Tarixi ərazilərimizdən azərbaycanlıların zorla çıxarılması

Qərbi Azərbaycan icması bir toplum olaraq haqqı tapdanan yüz minlərlə soydaşımızı və onların qanuni varislərini əhatə edir. Bu icmanın adı zamanında soydaşlarımızın yaşadıqları tarixi ərazilərimizin adından götürülüb. Yəni bugünkü Ermənistan Azərbaycanın Qərb bölgələrində yaradılıb və həmin ərazilərdən aborigen sakinlər olan azərbaycanlılar iradələrinin əksinə olaraq zorla çıxarılıblar, müxtəlif dönəmlərdə amansız deportasiyalara məruz qalıblar.

Bu məkrli plan bir neçə mərhələdə reallaşdırılıb. XIX əsrin əvvəllərində imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi ilə azərbaycanlıların deportasiya siyasətinin əsası qoyulub. Xüsusilə də 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib.

Soydaşlarımızın sonuncu dəfə deportasiyaya məruz qaldıqları 1988-1991-ci illərdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qalıblar. Verilən məlumatlara əsasən, azərbaycanlıların Ermənistan ərazisində yerləşən ata-baba yurdlarından sonuncu deportasiyası zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən təxminən 300 min soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar isə ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib.





### Qədim İrəvanın geniş əhatə dairəsinə malik müsəlman dini icması





### Dövlətimiz və cəmiyyətimiz üçün yeni ümummilli ideya

Biz artıq dövlət və cəmiyyət olaraq üç onillik ərzində ölkəmizin gündəliyinin mərkəzində dayanan əsas ümummilli ideyamızın reallaşmasına nail olmuşuq. Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət və xalqımızın həmrəyliyi sayəsində 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində möhtəşəm qələbələr qazanaraq ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsinə nail olmuşuq.

Yeni mərhələdə qarşımızda dayanan əsas hədəflərdən biri isə soydaşlarımızın Qərbi Azərbaycana ləyaqətli qayıdışının təmin edilməsinə nail olmaqdır. Hazırda bu məsələ cəmiyyətimizi səfərbər edən əsas ümummilli ideyaya çevrilib. Soydaşlarımızın Qərbi Azərbaycana qayıdış ideyası məhz dövlətimizin başçısı tərəfindən gündəmə gətirilib. Prezident İlham Əliyev bununla bağlı dəfələrlə öz fikirlərini ifadə edib. Son 20 ildən artıq bir müddətdə dövlətimizin başçısının imzaladığı bir sıra sənədlər, o cümlədən Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin yubileyinin keçirilməsi, Bakıda onun abidəsinin ucaldılması soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı üçün mənəvi zəmin formalaşdırır.

Azərbaycan Prezidenti sülhə, beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan siyasət həyata keçirir. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası da bu üç prinsipə uyğun reallaşdırılır. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təmin olunması Qayıdış Konsepsiyasının əsas hədəfini təşkil edir. Qayıdış Konsepsiyası beynəlxalq hüquqa və təcrübəyə əsaslanır. Ermənistan hakimiyyəti respublikamızda Qərbi Azərbaycan icmasının tarixi torpaqlarımıza qayıdışı ilə bağlı müzakirələrin aparılmasını Azərbaycanın bu dövlətə qarşı ərazi iddiaları irəli sürməsi anlamında təqdim edir. Bu, kökündən yanlışdır və Ermənistanın siyasi rəhbərliyinin növbəti dəfə məsuliyyətdən yayınmaq, beynəlxalq ictimaiyyəti aldatmaq cəhdidir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququ zamanında doğma yurd yerlərindən zorla qovulmuş azərbaycanlılara da şamil olunmalıdır.

Artıq Qərbi Azərbaycan İcması soydaşlarımızın tarixi yurd yerlərinə ləyaqətli qayıdışının təmin edilməsi istiqamətində praktiki müstəvidə əməli fəaliyyətlər həyata keçirilir. Qərbi Azərbaycana qayıdış ideyasının beynəlxalq gündəliyə çıxarılması mühüm hadisədir. Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin verdiyi məlumata əsasən, dünyanın bir çox ölkə və qurumlarına, siyasətçilərinə onlarla məktub və müraciətlər ünvanlanıb, icmanın yüzlərlə bəyanatı qəbul edilib. Bu gün Qərbi Azərbaycan İcmasının onadək sənədi artıq BMT-nin rəsmi sənədi kimi bütün rəsmi dillərdə və beynəlxalq qurumun üzvü olan bütün dövlətlər arasında yayılıb. 200 il ərzində ermənilər tərəfindən doğma ocaqlarından qovulmuş, artıq geriyə qayıda bilmək ümidini itirməkdə olan qaçqınlarda inam yaradılıb, insanlarımız bu ideya ətrafında sürətlə kənd-kənd, rayon-rayon təşkilatlanıb, Qərbi Azərbaycanın 24 rayonu və 277 yaşayış məntəqəsi üzrə icmalar formalaşdırılıb, Azərbaycanın 41 rayonu üzrə nümayəndəliklər qərargahla təmin olunub. Bütün bunlar onu deməyə əsas verir ki, biz Qərbi Azərbaycana qayıdışa doğru addım-addım irəliləyirik.

İrəvan Qazılığının bərpası mənəvi varlığımızın dirçəldilməsi, tarixi yaddaşımızın bərpası baxımından çox önəmli məsələdir. Şeyxülislam Allahşükür Paşazadə çıxışında qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsi İrəvan Qazılığının yenidən bərpa olunmasını zamanın çağırışı və tarixi ədalətin təntənəsi kimi qiymətləndirir.

Azərbaycanlıların həyatı artıq yüz illiklərdir ki, bilavasitə İslam dini ilə sıx bağlıdır. Soydaşlarımız harada yaşamalarından asılı olmayaraq İslam dininə etiqad göstərməklə yanaşı, bu mədəniyyətin zənginləşməsinə də öz töhfələrini veriblər. Yuxarıda qeyd etdiyimiz deportasiyalardan əvvəlki mərhələlərdə indiki Ermənistan ərazisində də İslam dini ilə bağlı böyük icma mövcud olub və bu icma tərəfindən müxtəlif ünvanlarda çoxlu sayda ibadət ocaqları, məscidlər yaradılıb. Arxiv sənədlərinə əsasən 1888-ci ildə İrəvan quberniyasında 210 məscid, 1902-ci ilin məlumatına əsasən isə 310 məscid olub. 1889-cu ilədək İrəvan və İrəvan quberniyasında müsəlmanlara xidmət göstərən 49 ruhani dairəsi mövcud olub. Bu dairələrin mollaları 1873-1879-cu illərdə qubernator tərəfindən təyin edilirdi. 1891-ci ildə İrəvan şəhərində 8 məscid, 11 dairə olub, qəzalarda isə məscidlərin sayı 37-yə çatmışdı.

Xüsusilə ermənilər tərəfindən tamamilə yer üzündən silinən İrəvan qalası 60-dək bürcü ilə arxitektura baxımından Şərqin, Türk dünyasının mühüm mədəniyyət mərkəzlərindən biri kimi tanınır. Qaladakı Sərdar sarayı, Sərdar məscidi, XVII əsrin nadir memarlıq abidəsi olan Göy məscid səyyahları həmişə heyran qoymuşdur. Qalada daha yeddi məscid fəaliyyət göstərib. İrəvan qalasından söz açan bir çox səyyahların işlətdikləri - Şiləçi, Sabunçu, Boyaqçı, Toxmaq, Təpəbaşı, Dəmirbulaq, Bağçalar, Yoncalıq, Börkü məhəllələri, Dəlməbulaq, Qırxbulaq, Sərdar bulaqları, Gedərçay, Qırxbulaq, Zəngi çayı, Dərə bağı, Dərəkənd, Şəhər, Fəhlə, Böyük meydanları, Göy məscid, Qala məscidi, Hacı Bəyim məscidi, Zal xan məscidi, Günlüklü məscidi, Günbəzli məscid, Şəhər məscidi, Novruzəli məscidi, Hüseynəli məscidi, Qanlı təpə, Üçtəpə, Qızıl təpə təpələri və s. toponimlər şəhərin zəngin müsəlman mirasına sahiblik etdiyini təsdiqləyən önəmli göstəricidir.

Qeyd edək ki, İrəvan həm də İslam tədris mərkəzlərindən biri olub. Arxiv sənədlərinə əsasən 1891-ci ildə İrəvan quberniyasında 28 mədrəsə fəaliyyət göstərib və bu mədrəsələrdə 637 tələbə təhsil alıb. Zamanında İrəvanın tanınmış soylarının bir çoxu ruhani təbəqəsinə aid olub.

İndiki Ermənistan ərazisində müsəlman dini icmasının geniş şəkildə mövcudluğu erməni mənbələrində də öz əksini tapıb. Erməni tarixçisi Tadevos Hakopyan yazır ki, 1923-cü ildə İrəvandakı məscid və kilsələrdən əlyazmalar toplanaraq Eçmiədzin kilsəsindəki əlyazmalar fonduna təhvil verilmişdi. Məscidlərdə saxlanılan əlyazmaların böyük əksəriyyətini Quran və İslam dininə aid kitablar təşkil edib. Qafqazın ilk şeyxülislamlarından biri olan Şeyxülislam Fazil İrəvani də 1847-1852-ci illərdə məhz İrəvanda şeyxülislam olub. Ancaq İrəvanda şeyxülislamlıqdan və dini məclisdən əvvəl "müsəlman dini şəriət" idarəsi fəaliyyət göstərib. Bu idarəyə Əkbər Ağa Axund Molla Məhəmməd oğlu başçılıq edib.

Ermənistanda azərbaycanlılara məxsus tarixi izlərin məqsədli şəkildə yox edilməsi dövlət səviyyəsində sistemli şəkildə həyata keçirilən bir siyasətdir. "Deportasiya" sözü yalnız soydaşlarımızın qurub-yaratdıqları evlərdən çıxarılması və köçürülməsi anlamında qəbul edilməməlidir. Tarixi ərazilərimizdən soydaşlarımızın zorla çıxarılması ilə paralel şəkildə, həm də tarixi-mədəni irsimizə qəsd edilib. Belə ki, bəhs olunan ərazilərdən azərbaycanlıların didərgin salınmaları, müxtəlif adlar altında sürgünə göndərilmələri dini-mədəni abidələrimizin dağıdılması, qədim toponimlərimizin dəyişdirilib eybəcər adlarla əvəzlənmsi, hətta qəbiristanlıqların belə təhqirlərə məruz qalması ilə müşayiət olunub. Ermənilər dini kimliyimizə açıq-aşkar qəsd ediblər. İrəvandakı Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə digər mənşəli abidə kimi "yenidən təmir edilib". Dağıdılmış abidələr arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi də var. həmçinin İrəvanın Sərdar məscidi də sistemli dağıntıya məruz qalıb və 2014-cü ildə tamamilə məhv edilib. Siyahı kifayət qədər uzundur. Bütövlükdə 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib. İrəvan Qazılığının fəaliyyətinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması yolunda atılmış çox mühüm addımdır.

**Mübariz ABDULLAYEV**

## Milli Məclisin iclasında...
# 13 məsələ müzakirəyə çıxarıldı

Mayın 23-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 13 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova mayın 19-20-də parlament nümayəndə heyətinin İspaniya Krallığına rəsmi səfəri haqqında məlumat verib. Onun sözlərinə görə, səfər çərçivəsində İspaniya Parlamenti Senatının sədri Pedro Rollan və Deputatlar Konqresinin sədri Fransina Armenqol ilə ayrılıqda görüşlər keçirilib. S.Qafarova qeyd edib ki, həmkarlarla söhbətlər zamanı Azərbaycan-İspaniya münasibətlərinin indiki vəziyyətindən, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə olunub. Siyasi əlaqələrin inkişafında müsbət dinamikanın müşahidə olunduğu diqqətə çatdırılıb. Bakıda keçirilmiş COP29 Konfransında İspaniya Hökumətinin Sədri Pedro Sançezin və parlament üzvlərinin Azərbaycana səfərlərinin əhəmiyyəti qeyd olunub.




Bildirilib ki, görüşlər çərçivəsində parlamentlər arasında əməkdaşlıq məsələləri müzakirə olunub. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi diqqətə çatdırılıb. Spiker deyib ki, ölkələrimiz arasında humanitar sahədə əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Təhsil, mədəniyyət sahələrində əlaqələrin xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığı vurğulanıb. Diqqətə çatdırılıb ki, görüşlərdə Cənubi Qafqazda mövcud vəziyyət barədə danışılıb. Azərbaycan-Ermənistan normallaşma prosesi, iki ölkə arasında mövcud olmuş münaqişənin tarixi, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, işğaldan azad edilmiş ərazilərimizdə aparılan tikinti-quruculuq işləri barədə həmsöhbətlərə geniş məlumat verilib. Həmçinin, qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb. S. Qafarova İspaniyaya rəsmi səfərin uğurlu olduğunu qeyd edib.

Daha sonra gündəlikdəki məsələlər müzakirə olunub. Əvvəlcə “Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Konstitusiya Qanununda dəyişiklik layihəsi ikinci oxunuşda təqdim edilib. Bildirilib ki, dəyişikliyin məqsədi Nazirlər Kabinetinin Milli Məclis qarşısında verdiyi hesabatın təqdim edilmə prosedurunun çevikliyinin artırılması ilə bağlıdır. Təklif edilən dəyişikliyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatının vaxtı iki orqan arasında razılaşdırılmaqla və hər iki orqanın iş qrafikinə daha uyğun vaxtda müəyyən ediləcək. Layihədə hesabatın verilməsi vaxtının martın 31-dək, yəni ilin I rübü ilə məhdudlaşdırılması təklif olunur.

Sonra Milli Məclis “Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində universal yoxlamalar proqramı çərçivəsində davamlı monitorinq mexanizminə dair Anlaşma Memorandumu”nu təsdiq edib. Sənəd 2023-cü il avqustun 1-də Bakıda, sentyabrın 8-də isə Monreal şəhərində imzalanıb.

Mülki Məcəllədə dəyişikliklərə gəlincə, irsi transmissiya ilə bağlı yeni hüquqi mexanizmlər təklif olunur. Həmin mexanizmlər irsi transmissiya prosesində hüquqi boşluqların aradan qaldırılmasını hədəfləyir. Təklif edilən dəyişikliklərə əsasən, əgər mirasa hüququ olan şəxs, yəni vərəsə mirasın açılmasından sonra və lakin onu rəsmən qəbul etməzdən əvvəl vəfat edərsə, həmin vərəsənin hüquqları onun öz vərəsələrinə ümumi qaydada ötürüləcək. Beləliklə, ilkin miras qoyanın əmlakı, ölmüş vərəsənin vərəsələri tərəfindən, onun mirasının tərkib hissəsi kimi qəbul ediləcək.

İclasda “Yaşayış minimumu haqqında” Qanunda da dəyişikliklər birinci oxunuşda qəbul edilib. Qanun layihəsi ölkə ərazisində tibb, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının yenilənməsinin hüquqi əsasının yaradılması və yeni qida normalarının müəyyən edilməsi məqsədilə hazırlanıb. Dəyişikliyə əsasən, Qanuna “Minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin yeni qida normaları müəyyən edilir” məzmunlu yeni maddə əlavə edilir.

Dəyişikliklərin qəbulundan sonra minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin yeni qida normaları təsdiqlənəcək.

Qeyd edək ki, iclasda gündəlikdə olan bütün məsələlər qəbul edilib. Spiker Sahibə Qafarova növbəti iclasın mayın 30-da keçiriləcəyini bildirib.

*Nardar BAYRAMLI*

# Minimum istehlak səbətinin tərkibinə yenidən baxılır

## “Yaşayış minimumu haqqında” qanununda dəyişikliklər sosial rifahın yaxşılaşmasını nəzərdə tutur

“Yaşayış minimumu haqqında” qanununda dəyişikliklər layihəsi Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilərək plenar iclasa tövsiyyə olunub və dünən parlamentin plenar iclasında müzakirəyə çıxarılıb. Layihə birinci oxunuşda qəbul olunub. Dəyişikliklərin əsas istiqamətləri minimum istehlak səbətinin tərkibinə yenidən baxılması və səbətdə yer alan qida normativlərinin yeni dəyərinin müəyyənləşdirilməsi, tibb, təhsil və sosial sahəyə aid müəssisələrdə yeni qida normalarının təsdiqlənməsidir.

Qeyd edək ki, hazırda qeyd olunan müəssisələrdə qida normaları Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq müəyyənləşir. Həmin normaların tətbiq edildiyi tarixdən uzun müddət keçməsinə baxmayaraq normaların tərkibi və strukturu üzrə ciddi dəyişiklik edilməyib. 11 il əvvəl sözügedən qanunda aparılan bəzi dəyişikliklər zamanı minimum istehlak səbətinin tərkibinə yenidən baxılarkən adıçəkilən müəssisələrdə qida normativləri olduğu kimi saxlanılıb. Bu isə institusional olaraq onların bu imkandan tam faydalanmasına imkan vermir.

Ötən illərdə ölkədə qida mallarının qiymətinin artması, bəzi malların çeşidlərində əlavələrin olunması isə istehlak səbətinin dəyişməsi zəruriliyini daha da artırıb. Bu baxımdan adıçəkilən müəssisələrdə istifadəsi məqsədəuyğun olan qida məhsullarının çeşidliliyinin minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibinə uyğunlaşdırılmasına, həmçinin müxtəlif növ xəstəliklərin müalicə metodikasından irəli gələrək tibb müəssisələrində yeni qida normalarının müəyyən edilməsinə ehtiyac yaranıb. Beləliklə, qanuna dəyişikliklərdən sonra qeyd edilən sahələrdə boşluq aradan qaldırılmaqla, həmin sektorlarda qida normativləri ilə bağlı əhatəlilik təmin olunacaq.

**Yaşayış minimumu istehlak səbətinin dəyərini müəyyənləşdirir**

Yaşayış minimumu minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır. Minimum istehlak səbəti isə insan sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusudur. Buraya ərzaq məhsullarının, fərdi və ailəvi istifadə olunan qeyri-ərzaq mallarının minimum toplusu (geyim, ayaqqabı və dəftərxana ləvazimatları, təsərrüfat, mədəni-məişət, sanitariya əşyaları, dərmanlar və s.) və xidmətlərin minimum toplusu (mənzil-kommunal, nəqliyyat, rabitə, məişət, təhsil, mədəni-maarif, müalicə-istirahət xidmətləri və s.) daxildir. İstehlak səbətinə daxil olan ərzaq məhsulları, qeyri-ərzaq malları və xidmətlər orta bazar qiymətləri (tarifləri) ilə, icbari ödənişlər isə normalaşmış faktiki



məsrəflər əsasında hesablanır.

Yaşayış minimumunun aztəminatlı ailələrin rifahının yüksəldilməsi ilə bağlı konsepsiya və Dövlət Proqramlarının hazırlanmasında, əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi və proqnozlaşdırılması ilə əlaqədar hüquqi sənədlərin tərtib olunmasında, eləcə də dövlət və yerli büdcələrin, büdcədənkənar fondların, qanunvericiliklə tənzimlənən qiymət və tariflərin formalaşdırılmasında və normativ sənədlərin hazırlanmasında sosial məqsədlər üçün istifadə olunur. Belə ki, yaşayış minimumu aztəminatlı ailələrə müxtəlif sosial yardımların formalaşdırılması və hesablanmasında, eləcə də onlarla bağlı dövlət proqramlarının işlənib hazırlanmasında, qanunvericilikdə tənzimlənən qiymət və tariflərin formalaşdırılmasında, ölkə üzrə həyat səviyyəsinin müəyyən edilməsində, əhali gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsində də əsas göstəricidir.

**Həssas sosial qrupların müdafiəsi ilə bağlı hədəflər**

Hökumət vətəndaşlara vergi və sosial sığorta ödənişlərində güzəştlər edərkən “Yaşayış minimumu haqqında” qanunun müvafiq sosial tələblərinə istinad edir.

Hökumət qarşısında duran əsas sosial məqsədlərdən biri növbəti mərhələdə yaşayış minimumunun mərhələli şəkildə artırılması və Avropa Şurasının tətbiq etdiyi standartlar səviyyəsinə çatdırılmasıdır. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” sənədində əhalinin həssas sosial qrupları, aztəminatlı ailələrlə bağlı müxtəlif dövlət proqramları çərçivəsində tədbirlərin görülməsi, eləcə də əhalinin gəlir əldəetmə imkanlarının artırılması ilə bağlı hədəflər müəyyənləşib.

Hazırda ölkəmizdə yaşayış minimumunun məbləği 285 manat təşkil edir. Minimum istehlak səbətinin yeni tərkibinin müəyyənləşdirilməsi ötən dövrdə yaranan xərclərin də nəzərə alınmasına imkan verəcək. Bu, həm də istehlak səbətinin yeni tərkibinin müəyyənləşməsi fonunda hazırda dəyəri 285 manat olan yaşayış minimumunun da artırılması üçün imkanlar yaradacaq. Nəticədə sosial dəstəyə daha çox ehtiyacı olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi də təmin ediləcək.

*E.CƏFƏRLİ*

# Qayıdış hüququ uğrunda!

## Ermənistan Qərbi Azərbaycan mövzusundan niyə narahatdır?

Ermənistan Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı mövzusunun beynəlxalq müstəviyə çıxarılmasından təşvişə düşüb. Bir neçə gün öncə Türkiyənin paytaxtı Ankara şəhərində Qərbi Azərbaycan İcmasının və “Azərbaycan-Türkiyə Evi” İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfransın keçirilməsi, Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciət etməsi rəsmi İrəvanda “ciddi narahatlıq” yaradıb.

**Ani Badalyanın yanlış şərhi...**

Belə ki, Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ani Badalyan “Armenpress”in sualını cavablandırarkən deyib ki, “Ermənistan Respublikasının ərazisində “Qərbi Azərbaycan” yoxdur, Qərbi Azərbaycan Azərbaycan Respublikasının qərb rayonlarıdır”. Erməni tərəfi Qərbi Azərbaycan məsələsini guya, Ermənistana qarşı ərazi iddiası hesab edir.

Əslində, bu iddiaların heç bir əsası yoxdur. Çünki Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasında insanların Ermənistan Respublikasının vətəndaşı olaraq doğma yurdlarına dönməsi nəzərdə tutulur. Qərbi azərbaycanlılarının doğma yurdlarına qayıtması onların fundamental haqqıdır və bu da beynəlxalq hüquqla təsbit olunub. İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb. BMT-nin insan hüquqları və beynəlxalq hüquq sahəsində qəbul etdiyi mühüm prinsiplərdən biri olan qayıdış hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinin 2-ci bəndində qeyd olunur. Bu bənddə açıq mətnlə deyilir ki, “Hər kəsin öz ölkəsi daxilində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququ var” və “hər kəsin öz ölkəsinə qayıtmaq hüququ var”.




**İcma: Ermənistanın inkarçılıq xətti tutması qəbuledilməzdir**

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması bəyanat verib. İcma Prezident İlham Əliyevin mayın 21-də Ankarada “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda keçirilmiş konfransın iştirakçılarına ünvanladığı müraciətə dair Ermənistan Xarici İşlər Nazirliyinin verdiyi bəyanatı qınayıb. Bildirilib ki, Ermənistan hökumətinin əsas insan hüququ olan qayıdış hüququnu təmin etmək əvəzinə, təhrif olunmuş bəyanatlar yayması, məsələnin mahiyyətini danaraq inkarçılıq xətti tutması qəbuledilməzdir. “Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqdan qaçması, öz ərazisində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə iş aparan keçmiş qondarma rejimin tör-töküntülərinin fəaliyyətinə imkan verməsi bu ölkənin regionda davamlı sülhdə maraqlı olmasına dair verdiyi bəyanatlarla tam ziddiyyət təşkil edir. İcmamız bir daha vurğulayır ki, beynəlxalq hüquq çərçivəsində və sülh yolu ilə qayıdış hüququ uğrunda əzmlə mübarizəsini davam etdirəcək”, - deyə bəyanatda qeyd olunub.

Ermənistan rəhbərliyinin azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtması hüququnu təkzib etməsi, yüz minlərlə azərbaycanlının daxil olduğu Qərbi Azərbaycan İcmasının Ermənistan rəhbərliyini bu istiqamətdə dialoqa çağırışına qarşı çıxması, bu hüquqların tələbinin “ərazi iddiası” kimi təqdim edilməsi Ermənistanın “insan hüquqlarına” heç bir dəyər verməyən və “etnik təmizləmə əsasında monoetnik dövlət titulunu” qorumaq üzrə məkrli siyasətinin bir göstəricisidir. Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Ermənistandan azərbaycanlıların qovulması nəinki tarixi faktdır, eynilə, həm sovet Ermənistanı dövründə, həm də 1990-cı illərdən bəri minlərlə Azərbaycan toponimlərini məqsədyönlü şəkildə dəyişən, tarixi torpaqlarımızdan xalqımızın irsini məhv edən, tarixi abidələri dağıdan, bununla Azərbaycanın tarixi torpaqlarını erməniləşdirməyə cəhd göstərən Ermənistanın ölkəmizin Qərbi Azərbaycan İcması ifadəsindən istifadə etməsini yanlış təqdim etməsi ən azı riyakarlıqdan başqa bir şey deyil.

*Nardar BAYRAMLI*

# Milli maraqların müdafiəsi...

## İctimai və dövlət maraqları necə təmin edilir?

Müasir cəmiyyətin və dövlətin sabitliyinin, davamlı inkişafının və hüquq sisteminin səmərəliliyinin təmin olunmasında ictimai və dövlət maraqlarının müdafiəsi mühüm rol oynayır. Azərbaycanda bu sahədə aparılan islahatlar, qəbul edilən qanunvericilik aktları və vətəndaş cəmiyyəti institutlarının fəallaşması ictimai və dövlət maraqlarının daha effektiv müdafiəsinə şərait yaradır. Ölkənin əsas məqsədlərindən biri də güclü vətəndaş cəmiyyətinin formalaşmasını təmin etməkdir. Məhz belə bir vətəndaş cəmiyyəti ictimai və dövlət maraqlarının səmərəli müdafiəsinə zəmanət verə, neqativ amillərin qarşısını ala bilər.

Məlumdur ki, demokratik və hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olan vətəndaş cəmiyyəti institutları milli birliyin daha da gücləndirilməsi işinə böyük töhfələr verir. Azərbaycan, eyni zamanda, regionda sülhə, sabitliyə və iqtisadi rifaha nail olmağa yönəlmiş xarici siyasət yürüdür. Bütün bunlar ictimai və dövlət maraqlarının müdafiəsinə kompleks zəmin yaradır. Vətəndaşların dövlətin və cəmiyyətin inkişaf proseslərində fəal iştirakı uğurla təmin edilir.

### Milli maraqlar uğurla təmin edilib

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, ölkəmizdə ictimai və dövlət maraqlarının müdafiəsindən danışarkən, köklü modernləşməyə xüsusi diqqət edilməlidir. Eyni zamanda, bu barədə danışarkən demokratikləşmə sahəsində əldə olunan nailiyyətləri qeyd etməmək olmaz: "Bu gün islahatların gedişi barədə əhalinin və dünya ictimaiyyətinin geniş şəkildə məlumatlandırılması və onların həyata keçirilməsinə ictimai nəzarətin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Transformasiyaların səmərəliliyinin açarı vətəndaşların dövlətin və cəmiyyətin inkişaf proseslərində fəal iştirakıdır. Son illər bu unikal mexanizm vasitəsilə müxtəlif istiqamətlər üzrə vətəndaşlardan çoxsaylı müraciət daxil olub və onlar müvafiq qaydada hökumət tərəfindən cavablandırılıb. Bunlar insan hüquq və azadlıqlarına riayət və hörmətə, ümumi təhlükəsizlik təhdidlərinə yeni yanaşmalara, milli qanunvericiliyə beynəlxalq standartların tətbiqinə gətirib çıxarıb. Eyni zamanda, o da mühümdür ki, ölkənin siyasi müstəqilliyinin formalaşması və inkişafı şəraitində obyektiv olaraq milli kimliyin formalaşması da uğurla həyata keçirilib. Bu zaman milli maraqlar məsələsi də uğurla təmin edilib".



### Milli maraqlar dövlətin təməl daşıdır

B.Məhərrəmovun sözlərinə görə, milli maraqlar hər bir dövlətin fəaliyyətinin təməl daşı hesab olunur: "İstənilən dövlətin siyasətinin əsasında milli maraqlar dayanmalıdır. Siyasi baxışlarından asılı olmayaraq hər bir vətəndaşın da ilk vəzifəsi məhz dövlətin mənafeyini qorumaq, ölkənin maraqlarını müdafiə etməkdən ibarətdir. Bütün siyasi qüvvələrin, vətəndaş cəmiyyətinin, hətta bütün vətəndaşların yeganə amalı ölkəmizin daha yüksək səviyyədə inkişafına dəstək vermək və bu prosesdə fəal iştirak etmək olmalıdır. Siyasi həyat bir-biri ilə əlaqəli maddi formasiyaların, ideoloji və digər siyasi-ictimai institutların, o cümlədən dövlət qurumlarının məcmusunda çoxşaxəli olduğu kimi, siyasi maraqlar da müxtəlifdir. Paralel olaraq həm də xarici siyasətdə eyni halın şahidi olmaq mümkündür - dövlətçiliyin və dövlətlərarası münasibətlərin inkişafında milli maraqlar həmişə əsas olub. Siyasi prosesdə, bir qayda olaraq, milli maraqlar probleminin aktuallaşması özünü göstərir. Müasir tarixi inkişaf dövrünün xüsusiyyəti ondan ibarətdir ki, indi milli maraqlar problemi digər elm sahələrinə nisbətən daha çox siyasətdə öyrənilir və bu, tamamilə düzgündür, formalaşmış təcrübəyə əsaslanaraq cəmiyyətdən problemlərin həllini tələb edir. Azərbaycan bu məsələnin öhdəsindən uğurla gəlib və bu da ölkəyə ictimai maraqları da uğurla təmin etməyə imkan verir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

### Maarifləndirmə işləri getməsə...

Deputat qeyd edib ki, əgər ictimai və dövlət maraqlarının təbliğatı istiqamətində maarifləndirmə işləri getməsə, milli-mənəvi dəyərlər sisteminə zidd olan, bizə xaricdən diqtə edilən "dəyərlər sistemi" onu əvəz edəcək: "Bunun isə hansı ağır nəticələrə gətirəcəyini proqnozlaşdırmaq çətin deyil. Ona görə də bu sahədə təbliğat-təşviqat işləri gücləndirilməli, bu istiqamətdə televiziyaların, internet televizyalarının imkalarından maksimum istifadə edilməlidir".

*Sahib*

# Rəqəmsal sektorun uğuru

## Azərbaycan "StartupBlink" qlobal startap indeksində mövqeyini yaxşılaşdırıb

İnnovasiya iqtisadiyyatı üzrə araşdırma platforması olan "StartupBlink" 2025-ci il üçün Qlobal Startap Ekosistemi İndeksini açıqlayıb. Son dörd ilin hesabatlarında ardıcıl yüksəliş nümayiş etdirən Azərbaycan cari ildə ən yüksək nəticəyə nail olub. Belə ki, ölkəmiz qlobal reytinqdə 2024-cü illə müqayisədə 6 pillə irəliləyərək 74-cü yerdə qərarlaşıb. Ekosistemin illik artım tempi 24 faiz təşkil edib ki, bu da Mərkəzi Asiya regionunun ən yüksək göstəricisidir.

Azərbaycanın əldə etdiyi digər uğurlu göstərici Bakının reytinqdə "İlin şəhəri" olaraq seçilməsidir. Paytaxt şəhər, xüsusilə elektron kommersiya, pərakəndə satış, təhsil, həmçinin sosial-əyləncə sektorunda innovativ texnologiyaların tətbiqi üzrə rəqiblərindən öndədir. Hesabatda startap ekosisteminin ümumi icmalı da verilib. Bu xüsusda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) aparıcı dövlət qurumu olaraq yerli ekosistemin inkişafı, innovasiyaların təşviqi və rəqəmsallaşma istiqamətində həyata keçirdiyi fəaliyyət vurğulanıb.

### Dünya startap ailəsində Azərbaycanın yeri

Son illərdə ölkəmizdə innovasiya infrastrukturunun yaradılması, texnoparkların inkişafı, innovativ layihələr üçün maliyyə mexanizmlərinin əlçatanlığının artırılması, İKT sahəsində insan kapitalının yetişdirilməsi sahələrində müsbət meyillər açıq müşahidə edilməkdədir. Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. Bu motivasiyalar sayəsində son illərdə Azərbaycanın İT və rəqəmsal sektorlarında startap, süni intellekt və biznes ideyaları dünya ölkələrinin startapları ilə rəqabət aparmağa çalışır. Onların KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qazanmağa nail olub. Ölkəmizi təmsil edən "SkyBee" komandası Ümumdünya Startap Yarışmasının (World Startup Competition) Asiya və Afrika üzrə Regional Final Müsabiqəsində 30-dan artıq texnologiya şirkəti arasında "Aqrar sektorda ən yaxşı startap" nominasiyasının qalibi olub. Azərbaycanlı startapçılar artıq okeanın o tayında da rəqabət üçün imakanlarını sınamağa çalışır. Yaxın vaxtlarda ABŞ-da keçiriləcək Ümumdünya Startap Yarışmasına iştirak hüququ qazanmaq bu imkanları nümayiş etdirmək baxımından yaxşı fürsət hesab edilə bilər.




### "Qlobal İnnovasiya İndeksi"ndə irəliləyiş

İnnovasiyalar üzrə əldə edilən nəticələr bir daha onu təsdiqləyir ki, Azərbaycan rəqəmsal inkişaf və ağıllı texnologiyalar, süni intellekt quruculuğunda təşəbbüskar ölkə kimi nüfuzunu artırmaqdadır. Hazırda Azərbaycan iqtisadiyyatının və idarəetmə sektorunun müxtəlif sahələrində, o cümlədən sənaye, energetika, kənd təsərrüfatı, SOCAR, sənaye parkları, futbol, güləş, cudo və digər sahələrdə süni intelekt texnologiyalarının tətbiqi geniş vüsət almaqdadır. Eləcə də müxtəlif biznes layihələrində, tikinti və texnologiyalar sahələrində süni intellekt və robotlar vasitəsilə müxtəlif layihələrin icrası həyata keçirilir.

Bütün bunların nəticəsidir ki, son illər İT və innovasiyalar üzrə hesabatlarda ölkəmizin mövqeyi yüksəlir. Dünya Bankı (DB) tərəfindən dərc edilmiş qlobal tədqiqat sənədində Azərbaycanda "4G+" mobil şəbəkə infrastrukturun vəziyyətinə görə, region ölkələri sırasında əlverişli dövlətlər qrupunda yer alıb.

Eləcə də ötən il nəşr edilən "Qlobal İnnovasiya İndeksi"ndə ölkəmiz innovasiya fəaliyyətinin səmərəliliyinə görə, irəliləyiş əldə edib və göstəricilərini 4 pillə yaxşılaşdıraraq 89-cu yerdə qərarlaşıb. Azərbaycan "innovasiya resursları" alt indeksi üzrə isə 76-cı yerdə qərarlaşıb. Qeyd edək ki, "innovasiya resursları" və "innovasiya nəticələri" çox mühüm əhəmiyyətə malik indekslər olmaqla bir-birinə qarşılıqlı olaraq bağlıdır. Həmin göstəricilər üzrə irəliləyiş Azərbaycanın bu sahədə müasir institutlar yaratdığını, insan kapitalını, elm və təhsil potensialını inkişaf etdirdiyini, səmərəli biznes modelləri qurduğunu təsdiq edir.

### "IDEA: Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiya"

Dünya İqtisadi Forumunun "IDEA: Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiya" hesabatında Azərbaycanın müasir İT yenilikləri, startaplar və innovasiyalar üzrə yaratdığı əlverişli biznes mühiti müsbət qiymətləndirilib. Hesabatda vurğulanır ki, Azərbaycana birbaşa xarici investisiyaların əsas hissəsinin neft-qaz sektoruna daxil olmasına baxmayaraq, ölkədə fəaliyyət göstərən xarici investorların fəaliyyətinə diqqətlə nəzər saldıqda yeni investisiya layihələrinin əksəriyyəti maliyyə, biznes xidmətləri, proqram təminatı, İT xidmətləri və sənaye avadanlıqlarının istehsalı kimi sektorlarda cəmləşib. Bu isə Azərbaycanın sosial-iqtisadi inkişaf məqsədlərinə xidmət etməklə qeyri-neft sahələrinin inkişafını bə özəl sektorun fəaliyyətini stimullaşdırıb.Yeni yaradılmış sənaye texnoparkları və biznes inkubatorları rəqabətli sənaye məhsulunun istehsal və ixracında əhəmiyyətli rol oynayıb.

Dünya Bankının ötən il dərc etdiyi "GovTech Yetkinliyi İndeksi"nin hesabatında yüksək nəticələr əldə edən Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə ən yaxşı ölkələr qrupunda yer alıb. "GovTech Yetkinlik İndeksi"nə görə, Azərbaycan rəqəmsallaşma sahəsində hökumət sistemlərinin təkmilləşdirilməsi, vətəndaşlara təqdim olunan xidmətlər paketinin genişləndirilməsi, vətəndaş iştirakının təmin olunması və rəqəmsal texnologiyalardan istifadənin təşviqi üzrə yüksək qiymətləndirilib.

Həm Dünya Bankının, həm də Dünya İqtisadi Forumunun hesabatlarından da göründüyü kimi rəqəmsal quruculuğun inkişafına töhfə verən müasir sənaye modellərinin yaradılması Azərbaycanın dünya iqtisadiyyatının rəqəmsal transformasiyasına, yüksək texnologiyalara əsaslanan innovasiya cəmiyyəti quruculuğu prosesində fəal iştirak etməkdədir.

*ELBRUS CƏFƏRLİ*

# Aİ Macarıstanı növbəti dəfə hədəfə alır

## Budapeştə qarşı ikili standart tətbiq oluna bilər



Avropa İttifaqı Şurası mayın 27-də Avropa İttifaqı haqqında Müqavilənin 7-ci maddəsinə uyğun olaraq Macarıstanın "Birlikdə səsvermə hüququ"ndan məhrum edilməsi məsələsinə dair dinləmələr keçirəcək. Məlumat qurumun saytında yerləşdirilib - bildirilir ki, Nazirlər Avropa Parlamentinin təşəbbüsü ilə 7-ci maddə proseduru çərçivəsində Macarıstan üzrə səkkizinci dinləməni keçirəcəklər. Qeyd edək ki, Avropa İttifaqı haqqında Müqavilənin 7-ci maddəsi ümumi dəyərlərə zidd hərəkətlərlə əlaqədar Birlik dövlətlərinin müəyyən hüquqlarının, o cümlədən ölkənin Aİ Şurasındakı nümayəndəsinin səsvermə hüququnun dayandırılmasının mümkünlüyünü nəzərdə tutur. Bundan əvvəl Britaniyanın "Financial Times" qəzeti yazıb ki, bir çox Aİ rəsmiləri Budapeştin Birliyin ilk növbədə Rusiya ilə bağlı əsas qərarlarına mane olmaq qabiliyyətinə görə Macarıstanın səsvermə hüququndan məhrum edilməsi məsələsini müzakirə ediblər.

**Macarıstan "xora" qoşulmur...**

Məsələnin mahiyyətinə keçməzdən öncə qeyd edək ki, bu qərarın verilməsi "zərurəti" Aİ-nin Rusiyaya təzyiq məqsədilə həyata keçirməyə çalışdığı bir sıra planlarla sıx əlaqədədir. Başqa sözlə, Aİ Ukraynaya "yardım" adı altında dövlətlərin daha çox "dəstək verməsi" və ya silahlanmaya kömək etməsi məqsədilə qərarlar qəbul etməyə çalışır. Bu isə onsuz da ağır iqtisadi vəziyyətdə olan bəzi Aİ ölkələrini çətinə salır.

Məsələ tək Ukrayna münaqişəsi ilə də məhdudlaşmır - məsələn, ötən ilin yayında Aİ-nin müdafiə naminə, xüsusilə geridə qalmış regionların inkişaf edirilməsi proqramı üçün pula qənaət etməyi planlaşdırması narazılıq doğurmuşdu. Avstriya, İsveç, Hollandiya və daha az dərəcədə Danimarka Aİ-nin xərcləmə qaydalarını liberallaşdırmaq istəmirdi. Paralel olaraq bir qism isə müdafiə sahəsində səlahiyyətlərin əksəriyyətinin Brüsselə verilməsindən narahat idi. Bunu açıq şəkildə ifadə edən ilk şəxs, isə Macarıstanın baş naziri Viktor Orban olmuşdu. Baş nazir Avropa ölkələrinin müdafiə qabiliyyətini gücləndirməsi ilə bağlı ideyanı dəstəklədiklərini bildirib, amma bu səylər Brüssel bürokratlarına deyil, üzv dövlətlərin səlahiyyətinə verilməlidir, deyə fikir ifadə olunmuşdu.

Eyni vaxtda həm də Ukraynaya yardım məqsədilə Rusiyanın dondurulmuş aktivlərindən əldə olunan gəlirlərin Avropa Sülh Fonduna köçürmək qərarı verilmişdi - Aİ Rusiyanın aktivlərindən gələn gəlirdən Ukraynaya 1,4 milyard avro, 2024-cü ilin sonuna qədər isə 1 milyard avro ayıracaqdı. Macarıstan bu məsələdə də Aİ-nin "məqsədlərini" puça çıxarmışdı - Avropa Sülh Fondundan Kiyevə 6 milyard avrodan çox ödənişləri əngəlləmişdi. Qeyd edək ki, Avropa İttifaqının Rusiyanın dondurulmuş aktivlərindən əldə edilən gəlirlərin Ukraynanın hərbi ehtiyaclarına köçürülməsi ilə bağlı qərarının reallaşması üçün isə Macarıstan veto hüququndan istifadə edirdi.

**Budapeştə qarşı siyasi təzyiq aləti...**

Amma görünən budur ki, Aİ Macarıstanın müstəqil, özünün maraqları çərçivəsində qərarlar qəbul etməsindən narahatdır - Avropa İttifaqı haqqında Müqavilənin 7-ci maddəsinə uyğun olaraq Macarıstanın "Birlikdə səsvermə hüququ"ndan məhrum edilməsi məsələsinə dair dinləmələr keçirilməsi "zərurəti" də məhz buradan yaranıb. Aİ anlayır ik, özünün korporativ maraqları üçün verəcəyi "konsorsium" qərarların bloklanmaması üçün Macarıstanı "prosesdən" kənarlaşdırmalıdır.

Bu xəbər isə beynəlxalq aləmdə ciddi narahatlıq və rezonans doğurur - hətta Qərbin aparıcı KİV-ləri belə Aİ-nin planlaşdırdığı addımları hədəfə alırlar. Bu addımı təkcə hüquqi prosedur deyil, həm də Avropa İttifaqının dəyərlərindən uzaqlaşmasının bariz göstəricisi kimi qiymətləndirirlər. Bildirilir ki, 7-ci maddə -Aİ üzv dövlətlərində hüququn aliliyi, demokratiya və əsas insan hüquqları prinsiplərinin pozulduğu halda tədbir görülməsini nəzərdə tutur. Bu iddianın Macarıstan kimi suveren düşüncəsi olan, müstəqil siyasi xətt malik olan dövlətə qarşı çevrilməsi siyasi təzyiq aləti olması deməkdir. Maraqlıdır ki, Budapeşt hər zaman özünün milli maraqlarına söykənərək çıxış edir - miqrasiya, gender ideologiyası, media siyasəti və məhkəmə islahatlarına dair özünəməxsus müstəvidə yanaşması mövcuddur - nəzərə alınmalıdır ki, bu fərqlilik Aİ-nin bəyan etdiyi "çoxsəslilik", "plüralizm" və "suverenliyə hörmət" prinsipləri ilə uyğun gəlir. Bəzi siyasətçilər açıq formada bildirirlər ki, səsvermə hüququndan məhrumetmə cəhdi Macarıstanın yalnız Aİ daxilində mövqeyini zəiflətmək deyil, həm də digər fərqli düşüncəli dövlətlərə siyasi mesaj xarakteri daşıyır. Bu, Avropa İttifaqının içində demokratik əksəriyyət prinsiplərinin azlıq fikrinə qarşı alətə çevrilməsi, "mərkəzdən idarə olunan" dəyərlərin zorla qəbul etdirilməsi cəhdidir.

**Aİ Macarıstanı səsvermə hüququndan məhrum etməklə...**

Bu antidemokratik hal Aİ daxilində yeni tələb deyil - əvvəllər də bu tələb daha fərqli formatlarda ortaya qoyulub. Amma bütün hallarda Avropa İttifaqının bu kimi "tələbləri" üzv dövlətlərin hüquqlarını pozmağa yönəlik addımlar sayılıb - Bu addımlar isə xüsusilə, suveren əsaslarda əməkdaşlıq şərtləri altında birləşmiş Aİ üzvü ölkələrin suveren hüquqlarının zəbt olunması deməkdir. Etiraf edilməlidir ki, Macarıstana qarşı belə bir addımın reallaşdırılması istiqamətində uzun müddət idi ki, "axtarışlar edilir", siyasi söykənəcək axtarılırdı. Bu fakt bir daha onu təsdiqləyir ki. Aİ Macarıstanın timsalında suveren hüquqlarını qorumağa çalışan dövlətin seçiminə hörmət etmir. Brüssel, Aİ-nin siyasi-iqtisadi təsisatları özünün iqtisadi maraqları naminə siyasi spekulyasiyalara, manipulyasiyalara əl atır, Aİ-nin daxili nizamnaməsinin əsas bəndi sayılan bərabərhüquqlu əməkdaşlıq çərçivəsindəki suveren hüquqları pozulmasını legitimləşdirməyə çalışır. Nizamnamə və prinsiplər Aİ müstəvisində bərabər iştirakçılığı ehtiva edir - nəzərdə tutulan səsvermədən məhrumetmə isə açıq hüquq pozuntusudur. Hazırkı situasiyada Macarıstan özünün dövlət maraqlarının, iqtisadi rıçaqlarının və resurslarının qorunması istiqamətində atdığı addımlara görə "ittiham edilir". Özünü demokratik dəyərlərə hörmət edən bir qurum kimi tanıdan Aİ-nin bu qərarı Macarıstanın hüququnun məhdudlaşdırılmasıdır - təssüfləndirici haldır ki, Macarıstanın timsalında baş verənlər Aİ-nin mütəmadi olaraq üzv dövlətlərin hüquqlarının pozulması istiqamətindəki növbəti epizodu kimi tarixə yazılacaq...

*SADİQ*

# Qəzzada müharibə dayana bilər

## Bölgə silahsızlaşdırılmalıdır!



Qəzzada vəziyyət gərgin olaraq qalır. Belə ki, bölgədə İsrail ilə HƏMAS arasında döyüşlər davam edir. ABŞ, Qətər və Misirin vasitəçiliyi ilə aparılan uzunmüddətli danışıqlar nəticəsində bu ilin yanvarın 19-da İsrail ilə HƏMAS arasında imzalanan atəşkəs sazişi martın 18-də tərəflər arasında yenidən silahların işə salınması ilə fiaskoya uğradı. Artıq mayın 18-dən başlayaraq İsrail Silahlı Qüvvələrinin bölgədəki hərbi əməliyyatları geniş vüsət alıb.

**Netanyahu bəyanat yayıb**

İsrailin Qəzzada hərbi əməliyyatlarının genişlənməsinə baxmayaraq, rəsmi Təl-Əviv növbəti dəfə atəşkəsə gedə bilər. Qeyd edək ki, Baş nazir Benyamin Netanyahu son yerli mətbuat konfransında bəyan edib ki, İsrail girovların azad edilməsinə dair razılaşmanın bir hissəsi olaraq Qəzza zolağında müvəqqəti atəşkəs rejimini qəbul etməyə hazırdır. Netanyahunun sözlərinə görə, HƏMAS-ın əlində olan bütün girovlar azad edilərsə, anklav tamamilə silahsızlaşdırılarsa və HƏMAS hərəkatı zolağın ərazisini tərk edərsə, İsrail Qəzzada müharibəni dayandırmağa hazır olacaq.

**Niyə məhz müvəqqəti atəşkəs, daimi mümkün deyil?**

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Zifəroğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, İsrailin yalnız müvəqqəti atəşkəsə hazır olduğunu bildirməsi və daimi atəşkəsə qarşı çıxması, həm bölgədəki reallıqlar, həm də strateji və siyasi məqsədlərlə bağlıdır. "İsrailin hazırda daimi atəşkəsə razılaşmamasının bir neçə səbəbi var. Təbii ki, ilk səbəb HƏMAS-la bağlıdır. İsrailin bu müharibədə əsas məqsədi HƏMAS-ı tamamilə sıradan çıxarmaq və onun Qəzza zolağında hərbi-siyasi idarəetməsinə son qoymaqdır. Daimi atəşkəs bu məqsədə çatmadan qəbul olunarsa, sözsüz ki, bu HƏMAS-ın qüvvələrini bərpa etməsi və daha sonra yenidən güclənməsi ehtimalını artıracaq. Digər səbəb isə İsrailin öz daxilində gedən proseslərlə bağlıdır. Netanyahunun koalisiyası sağçı və mühafizəkar qüvvələrdən ibarətdir. Bu qüvvələr hərbi əməliyyatların dayandırılmasını HƏMAS-a güzəşt kimi dəyərləndirir və hökumətə ciddi daxili təzyiq göstərirlər," - deyə V.Zifəroğlu vurğulayıb ki, İsrail tərəfi dəqiq şərtlər irəli sürür. "Netanyahu HƏMAS-ın tam tərk-silah olunacağı, zolağı tərk edəcəyi və girovları geri qaytaracağı halda müharibənin sona çata biləcəyini deyir. Bu isə faktiki olaraq HƏMAS-ın kapitulyasiyası deməkdir. Əslində, irəli sürülən bu şərtlər real şəraitdə çətin qəbul ediləcək şərtlərdir". Ekspertin sözlərinə görə, daimi atəşkəs üçün İsrail tərəfi yeni bir formatın yaradılmasını əsas olaraq götürür. "Bu ilk növbədə Qəzzada HƏMAS-ın yerinə ya Fələstin Muxtariyyəti, ya da beynəlxalq dəstəkli müvəqqəti hökumətin gəlməsi ilə bağlıdır. Bu isə həm diplomatik razılaşmalar, həm də bölgədə təhlükəsizlik mexanizmlərinin qurulması ilə mümkündür. Digər tərəfdən, regional aktorlar - ərəb ölkələrinin və İranın bu cür dəyişikliyə münasibəti birmənalı deyil".

**Tramp Netanyahunun mövqeyini dəstəkləyə bilər**

Bu məsələyə gəlincə, V.Zifəroğlu bildirib ki, Netanyahunun bu mövqeyi Trampın təhlükəsizlik baxışları ilə uyğun gəlir, amma; "Qlobal və humanitar təzyiqlər faktiki olaraq Trampı daha realistik addımlar atmağa vadar edir. Bunu onun son açıqlamalarından da görmək mümkündür. ABŞ-da demokratlar və beynəlxalq ictimaiyyət İsraildə daimi atəşkəs üçün təzyiq göstərir. Tramp isə bu təzyiqi zəiflədə bilər, ancaq bunu tamamilə gözardı etməsi çətin olar".

**HƏMAS silahı yerə qoyacaq?**

Politoloq Asif Nərimanlı hesab edir ki, HƏMAS-ın Qəzzanı tərk etməsi və özünü buraxması qeyri-mümkün görünür: "İsrail ilə iki ildən çox davam edən döyüşlər fonunda HƏMAS hərəkatı çox zəifləyib. HƏMAS-ın əlindəki silah-sursat dəmək olar ki, kifayət qədər tükənib. Eyni zamanda, Qəzzada silahların daşınması üçün nəzərdə tutulan yolların üçdə ikisi sıradan çıxıb. Hərəkatın özünü yeni silahlarla təmin etmək üçün imkanları yoxdur. Belə bir vəziyyətdə HƏMAS öz mövcudluğunu davam etdirmək üçün İsrail ilə atəşkəsə getməkdən başqa çarəsi olmayacaq. Qeyd edim ki, HƏMAS buna hazırdır. Sözsüz ki, əgər atəşkəs əldə olunarsa, HƏMAS İsrailə hücum etməmək barədə öhdəliklər götürəcək. Belə bir şəraitdə növbəti atəşkəs sazişinin imzalanması, HƏMAS-ın məğlubiyyəti, İsrailin qələbəsi demək olacaq. Amma HƏMAS-ın tamamilə silahı yerə qoyub özünü tərki-silah etməsi qeyri-mümkündür. HƏMAS-ın silah-sursatı tükənsə belə, xalq üsyanını təşkil etmək imkanlarına malikdir. Qəzzadakı fələstinlilər axıra qədər müqavimət göstərmək potensialına sahibdirlər".

*Yunis ABDULLAYEV*

# Vatikan təşəbbüsü üzərinə götürür

Vatikan Rusiya-Ukrayna danışıqlarında vasitəçilik təşəbbüsünü öz üzərinə götürə bilər. Qeyd edək ki, "The Wall Street Journal" qəzetinin məlumatına görə, Rusiya-Ukrayna münaqişəsinin nizamlanması üzrə növbəti danışıqların 2025-ci ilin iyun ayının ortalarında Vatikanda keçirilməsi planlaşdırılır. Qəzet qeyd edir ki, Vatikan bu təşəbbüsün baş tutması üçün hər iki münaqişə tərəfi ilə təmaslar qurub. Eyni zamanda Finlandiya Prezidenti Aleksandr Stubb və İtaliyanın baş naziri Ciorcia Meloni jurnalistlərə açıqlamasında yaxın zamanda Vatikanın danışıqlara ev sahibliyi etməsinin tam mümkün olduğunu bəyan ediblər. Xüsusilə vurğulamaq lazımdır ki, mayın 8-də yeni Papanın seçilməsindən sonra ABŞ daxil olmaqla bir neçə Qərb ölkəsi Vatikanın Moskva ilə Kiyev arasındakı gələcək danışıqlar üçün neytral platformaya çevrilməsini təklif edib.

**Tramp geri çəkilir?**

Bir neçə gün bundan əvvəl Tramp yerli mediaya müsahibəsində Rusiya və Ukrayna arasında müharibəyə son qoymaq üçün aparılan danışıqların Vatikanda keçirilməsini təklif edib. ABŞ Prezidenti Rusiya-Ukrayna müharibəsinə dair çıxışında atəşkəsin təmin olunması üçün neytral və dini zəminin əhəmiyyətinə toxunaraq, Vatikanın danışıqlara ev sahibliyi etməsinin əla ideya olacağını bildirib. Tramp, həmçinin Rusiya-Ukrayna müharibəsinin "Avropanın məsələsi" olduğunu deyib - o, ABŞ-ın bu münaqişəyə həddindən artıq resurs sərf etdiyini, Avropanın isə kifayət qədər təşəbbüs göstərmədiyini vurğulayıb. Xatırladaq ki, bir müddət bundan öncə Tramp Ağ Evdə jurnalistlərlə söhbətində bəyan etmişdi ki, əgər danışıqlarda heç bir irəliləyiş olmasa, ABŞ vasitəçilik missiyasından geri çəkiləcək və tərəfləri öz taleylərinə buraxacaq.

Məsələ ilə bağlı politoloq Tural İsmayılov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Vatikanın tarixən beynəlxalq münaqişələrdə vasitəçi kimi neytral mövqe tutması Trampın bu təklifinin əsas motivasiyalarından biri ola bilər. "Vatikan heç bir hərbi və ya geosiyasi maraqlara malik olmayan, dinə əsaslanan nüfuzlu bir qurumdur ki, bu da onu hər iki tərəf üçün etibarlı platforma edir. Trampın vasitəçilik təşəbbüsünü Vatikana ötürmək istəməsi ABŞ-ın birbaşa vasitəçi rolundan çəkinməsi və məsuliyyəti paylaşmaq strategiyası ilə izah oluna bilər. Bu, həm də ABŞ-ın münaqişədə tərəfsizliyini qorumaq cəhdini göstərir, çünki birbaşa iştirak Vaşinqton üçün tərəf qəbul etmə riski yarada bilər. Vatikanın seçilməsinin digər səbəbi onun qlobal miqyasda sülh təşəbbüslərinə verdiyi dəstək və Papa XIV Leonun sülhə sadiqliyi kimi qeyd edilə bilər".

**Ortodoks Rusiya və Ukrayna Vatikanın vasitəçiliyinə razı olacaq?**

Ukraynanın "Kyiv İndependent" agentliyinin məlumatına görə, Prezident Volodimir Zelenski Vatikanın vasitəçiliyinə razı ola bilər. Ukraynanın dövlət rəhbəri Rusiya, ABŞ və Aİ nümayəndə heyətləri ilə İstanbul, Vatikan və ya İsveçrədə görüşmək imkanlarını araşdırır. Rusiya tərəfinə gəlincə, Kreml hələ ki, bu barədə mövqeyini açıqlamayıb. T.İsmayılov vurğulayıb ki, Rusiyanın Vatikanda danışıqlara razı olub-olmayacağı mürəkkəb məsələdir. "Rusiya Pravoslav Kilsəsi ilə Roma Katolik Kilsəsi arasında tarixi gərginliklər olduğuna görə, Moskva bu təklifə ehtiyatla yanaşacaq. Ola bilər ki, Kreml təklifə müsbət cavab versin, çünki Vatikanın neytrallığı Rusiyanın öz şərtlərini irəli sürməsi üçün əlverişli zəmin yarada bilər. Lakin Rusiya ABŞ-ın təsiri altında olan platformalara, eləcə də Vatikanın tam neytrallığına şübhə ilə yanaşır".

**Vatikan görüş üçün məqsədəuyğundur ?**

T.İsmayılov Vatikanın simvolik və mənəvi çəkisi tərəfləri kompromisə sövq edə bilər "Vatikanın münaqişələrdə vasitəçilik təcrübəsi, məsələn, Kuba-ABŞ münasibətlərinin normallaşmasında rolu onun bu prosesdə uğurlu ola biləcəyinə işarədir. Lakin danışıqların uğuru tərəflərin niyyətindən və Vatikanın prosesi necə idarə etməsindən asılıdır,"- deyə ekspert vurğulayıb ki, Vatikanın töhfəsi tərəfləri bir araya gətirməklə məhdudlaşmaya bilər - katolik məzhəbinin baş mərkəzi - Vatikan həmçinin humanitar məsələlərə fokuslanmaqla, məsələn, əsirlərin mübadiləsi və ya atəşkəsə nəzarət kimi praktiki addımları təşviq edə bilər. Papa XIV Leonun sülh çağırışları və Vatikanın diplomatik kanalları tərəflər arasında etimadı artıra bilər. Vatikanın neytral zəmin kimi seçilməsi strateji addımdır, lakin prosesin uğuru tərəflərin siyasi iradəsindən asılıdır.

**Pravoslavlığın imicinə zərbə**

Ukrayna münaqişəsinin həllində Vatikanın fundamental rol oynayacağı qlobal mühitdə birmənalı qarşılanmır. Bu məsələyə skeptik yanaşanlar da var. Belə ki, Pravoslav və Katolik kilsələrinin 1054-cü ildəki "Böyük Ayrılma"dan (Schisma) sonra münasibətləri tarix boyu gərgin və mürəkkəb olub. Bu ayrılıqdan sonra bir çox pravoslav ölkələrində katolikliyə qarşı şübhə və ehtiyatlı yanaşma formalaşıb. Vatikan isə son onilliklərdə pravoslav kilsələri ilə dialoq qurmağa və



münasibətləri yaxşılaşdırmağa çalışsa da, bəzi siyasi məqamlar burada rol oynayıb. Məsələn, pravoslavların hakim olduğu aparıcı dövlətlərdən sayılan Rusiyanın katolik Qərb ilə siyasi problemləri dini yaxınlaşmalara da mənfi təsirini göstərib. Konkret iki pravoslav ölkəsi arasında Vatikanın vasitəçiliyinə gəldikdə isə, hətta Qərb siyasətçiləri etiraf edirlər ki, indiyə qədər bu cür anologiya görünməyib - Vatikan indiyədək konkret iki pravoslav ölkəsi arasındakı ciddi problemi tam şəkildə həll etməyib. Bunun səbəblərindən biri də budur ki, Vatikan daha çox mənəvi və diplomatik vasitəçi rolunu oynayır, amma pravoslav dünyasında onun nüfuzu məhduddur. Siyasi texnoloqlara görə, pravoslavlar Vatikana qarşı tarixi şübhələrdən "qurtula" bilmirlər və onun təşəbbüslərini "siyasi motivli" hesab edirlər. Nəzərə alsaq ki, hazırki Roma Papası XIV Leo Amerikan əsillidir, burada şübhələr daha da dərinləşir...

*Yunis ABDULLAYEV*

# Beşinci raund...

## Nüvə danışıqları ilə bağlı ABŞ və İran nümayəndələrinin Roma görüşündən gözləntilər

İran İslam Respublikası uzun müddətdir nüvə fəaliyyətinə görə Qərbin genişmiqyaslı sanksiyaları ilə üzləşib. ABŞ İranın nüvə proqramını qlobal təhlükəsizliyə təhdid kimi dəyərləndirir. Rəsmi Tehran isə proqramın reallaşdırılmasını onun üçün hədəf olduğunu bildirir. Nüvə proqramına görə tətbiq olunan sanksiyalar əsas etibarı ilə qonşu dövlətin neft ixracının məhdudlaşdırılmasını əhatə edir.

Donald Tramp ABŞ-da hakimiyyətə qayıtdıqdan sonra İranla nüvə danışıqları bərpa edilib. Belə ki, ABŞ və İran Omanın vasitəçiliyi ilə Tehranın nüvə proqramı ilə bağlı fikir ayrılıqlarını həll etmək üçün dörd raund danışıqlar aparıb. Onlardan üçü - aprelin 12-si, 26-sı və mayın 11-də Maskatda, digəri isə aprelin 19-da Romada baş tutub. Danışıqlarda İran nümayəndə heyətinə xarici işlər naziri Abbas Əraqçi, Amerika nümayəndə heyətinə isə prezidentin xüsusi nümayəndəsi Stiv Uitkoff başçılıq edib. İran-ABŞ danışıqlarının beşinci raundu isə Romada reallaşıb.

## Xamenei: Vaşinqtonun tələbi qəbuledilməzdir

Beşinci görüş ərəfəsində İranın Ali rəhbəri Ayətullah Seyid Əli Xamenei Tehranın nüvə proqramı ilə bağlı böhranın həlli istiqamətində ABŞ-la aparılan danışıqların effektivliyinə şübhə ilə yanaşdığını bəyan edib. Bu barədə Xameneinin mətbuat xidməti məlumat yayıb. “Həm sabiq prezident İbrahim Rəisi dövründə, həm də indi vasitəçilər tərəfindən aparılan danışıqlar nəticəsiz qalıb. İndi də onların nəticə verəcəyini düşünmürük”, - deyə İranın Ali rəhbəri bildirib. Onun sözlərinə görə, İrandan uranın zənginləşdirilməsini dayandırmağı tələb etmək böyük səhvdir: “Vaşinqtonun İrana uranı zənginləşməyə imkan verməyəcəkləri ilə bağlı bəyanatları qəbuledilməzdir. Bizə heç kimin icazəsi lazım deyil”.

Xatırladaq ki, bir müddət öncə rəsmi Vaşinqton Tehranın uranı zənginləşdirməkdən imtina etməli və nüvə proqramını effektiv şəkildə məhdudlaşdırmalı olduğunu bəyan edib. İranın Xarici İşlər Nazirliyi isə öz növbəsində sanksiyaların aradan qaldırılacağı təqdirdə uranın zənginləşdirilməsinin həcmi və səviyyəsinin məhdudlaşdırılması ilə bağlı ABŞ-la müzakirələrə hazır olduqlarını, lakin nüvə proqramını dayandırmayacaqlarını bəyan edib.



## Politoloq: Tərəflər danışıqlara və razılığa gəlməyə hazır görünür

Tərəflər arasında beşinci görüş irəliyə doğru addım ola biləcəkmi? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq Züriyyə Qarayeva bildirib ki, Donald Tramp ABŞ-ı 2015-ci ildə imzalanmış nüvə sazişi kimi tanınan Birgə Hərtərəfli Fəaliyyət Planından (JCPOA) birtərəfli qaydada çıxardıqdan sonra 2018-ci ildə iki ölkə arasında münasibətlər getdikcə gərginləşdi və sanksiyalar, qarşılıqlı təhdidlər də artdı. Co Bayden və İbrahim Rəisi dönəmlərində qarşılıqlı danışıqlar bəyanatları dribblinq oyunundan kənara çıxmadı və tərəflər birbirlərinə inamsız olduqları üçün addım atmağa razı olmadılar. Amma bu dəfə hər iki tərəf danışıqlara və razılığa gəlməyə hazır görünür.

Politoloqun fikrincə, bu danışıqlar həm iki ölkə arasındakı münasibətlər, həm də regional tarazlıq baxımından çoxölçülü nəticələr doğurur: “Məlumdur ki, Tramp dövrünün əsas xarici siyasəti “Öncə Amerika” perspektivi ilə formalaşır. Ona görə də bütün xarici siyasət qərarları bu prizmadan dəyərləndirilməlidir. Bu perspektivin əsasını Amerika vergi ödəyicilərinə əlavə xərclər qoyan xarici siyasət elementlərinin azaldılması strategiyası təşkil edir. Digər tərəfdən, keyfiyyətcə hərbi üstünlük (QME) çərçivəsində İsrailə verilən təhlükəsizliyin qorunması təminatı ABŞ üçün ciddi büdcə yükü yaradır. Bu xərclər Bayden dövründə, xüsusən də HƏMAS-ın 7 oktyabr hücumlarından sonra artıb. İran-İsrail münaqişəsi bu yükü daha da artıracağından, Tramp Tehranın nüvə proqramını dinc səviyyəyə endirmək üçün maksimum təzyiq siyasətini saxlamağı və beləliklə də, İsraila qarşı təhdidləri minimuma endirməyi planlaşdırır. Bu strategiyaya bir tərəfdən danışıqlar prosesinin aktiv saxlanılması, digər tərəfdən isə lazım gəldikdə İrana qarşı sanksiyaların artırılması daxildir”.

Z.Qarayeva hesab edir ki, ABŞ İranın Çinə neft satışına da ciddi nəzarət etməyi hədəfləyir. Bu vəziyyəti Trampın Çinlə ticarət müharibələrinin əksi kimi də qiymətləndirmək olar. Çünki Trampın məqsədlərindən biri Çin-İran iqtisadi əlaqələrini zəiflətməkdir. Proseslə bağlı qeyd edilməli olan digər məsələ Amerika Konqresinin təsdiqidir. Çünki, 2015-ci ildə qüvvəyə minmiş İNARA (İran Nüvə Müqaviləsi üzrə 2015-ci il Baxış Aktı) ABŞ Konqresinə Tehranla bağlanmış nüvə razılaşmalarını ətraflı araşdırmaq və təsdiq etmək hüququ verir. Bu qanun icra hakimiyyətinin birtərəfli sazişlər imzalamasının qarşısını almaq və Konqresin nəzarətini artırmaq məqsədi daşıyır.

## İran ABŞ-la birbaşa qarşı-qarşıya gəlmək istəmir

Həmsöhbətimiz deyib ki, İranla danışıqlar irəlilədikcə Konqres üzvləri Trampa müqavimət göstərə bilər: “Digər tərəfdən, Trampın Respublikaçılar Partiyasından aldığı dəstək, yenidən seçilmək istəyən Konqres üzvlərinin gözardı edə bilməyəcəyi amildir. 2026-cı il aralıq Konqresə seçkiləri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Çünki Respublikaçılar Partiyasının üzvləri İranla danışıqlar prosesinə mənfi təsir edərsə, Tramp onu dəstəkləyən seçiciləri ara seçkilərin keçirildiyi ştatlarda Respublikaçılar Partiyasına səs verməməyə təşviq edə bilər. Bu vəziyyətin yaranmasının qarşısını almaq üçün qanunvericilik və icra hakimiyyəti arasında balans yaradılacaq”. İranın mövqeyinə gəlincə, Z.Qarayeva deyib ki, Tehran administrasiyası nüvə məsələsində dik durmağa çalışsa da, hələ də dünyanın ən böyük hərbi gücü olan ABŞ-la birbaşa qarşı-qarşıya gəlmək istəmir. Ona görə də, Trampın təhdidlərlə dolu olmasına baxmayaraq, onun görüş təklifini qəbul etməyi seçdilər. “Tehranda bilirlər ki, əslində diqqətini Çinə qarşı mübarizəyə yönəltmək istəyən Tramp İranla birbaşa münaqişəyə həvəsli deyil”,-deyə politoloq vurğulayıb.

**N.BAYRAMLI**

# Onlar Harvardı “bitirməyəcəklər”...

## Tanınmış Universitetə əcnəbi tələbə qadağası qoyuldu

Dünyanın ən populyar ali təhsil ocaqlarından biri sayılan məşhur Harvard Universiteti bundan sonra xarici tələbə qəbul edə bilməyəcək. Belə ki, Universitetin tələbə və mübadilə proqramı sertifikatı ləğv edilib. Xarici KİV-lər yazır ki, ABŞ-ın daxili təhlükəsizlik naziri Kristi Noemin imzaladığı əmrə əsasən Harvard artıq xarici tələbələri qəbul edə bilməz. Mövcud əcnəbi tələbələr isə ya başqa universitetlərə köçürülməli, ya da hüquqi statuslarını itirməlidirlər. Söhbət ümumi tələbələrin 27 fazindən, eyni zamanda, 140 ölkədən təxminən 6800 tələbədən gedir.

Nazirlik bu qərarı “Harvard rəhbərliyinin anti-amerikan, terrorizm tərəfdarı olan təşviqatçılara bir çox yəhudi tələbələr də daxil olmaqla ayrı-ayrı şəxsləri təqib etməyə və fiziki hücuma keçməyə icazə verərək təhlükəli kampus mühiti yaratması” ilə izah edib.

## Səbəblər göstərildi...

Nazirliyin açıqlamasına görə, təşviqatçıların əksəriyyəti əcnəbi tələbələrdir. Vaşinqton bu məsələdə Cin faktorunu xüsusi qeyd edir - bildirilir ki, Universitet administrasiyası Harvardda zorakılığı, antisemitizmi təşviq etmək və kampusunda Çin Kommunist Partiyası ilə koordinasiyalı işləməkdə məsuliyyət daşıyır. “Universitetlərin əcnəbi tələbələri qəbul etmələri, çoxmilyardlıq ianələrini ödəmək üçün onların yüksək təhsil ödənişlərindən faydalanması hüquq deyil, imtiyazdır. Harvardın doğru yolu seçmək üçün imkanı var idi. O, imtina etdi. Onlar qanuna riayət etmədikləri üçün Tələbə və Mübadilə Proqramı sertifikatını itirdilər”.

Açıqlamada xatırladılıb ki, bu ilin 16 aprelində nazir Noem Harvarddan “kampusunda əcnəbi tələbələrin cinayətkarlığı və qanunsuz davranışları haqqında” məlumat verməsini tələb edib. Həmin vaxt nazir məlumat verilməyəcəyi təqdirdə xarici tələbə qəbul etmək və mübadilə proqramı sertifikatının ləğv ediləcəyi barədə xəbərdarlıq edib. Lakin Harvard Universiteti tələb olunan məlumatı verməkdən imtina edib. Bildirilib ki, birgə hökumət işçi qrupu Harvardın kampusunda “geniş yayılmış irqi ayrı-seçkilik və antisemitizm təqibləri” ilə mübarizə apara bilmədiyini müəyyən edib. “Belə ki, kampusdakı yəhudi tələbələr geniş yayılmış təhqirlərə, fiziki hücumlara və hədələrə məruz qalıblar. Harvardın 2025-ci ildə antisemitizmlə bağlı daxili araşdırması göstərdi ki, yəhudi tələbələrin 60 faizi “cari hadisələrə baxışlarına görə kampusda ayrı-seçkilik, stereotiplər və ya mənfi qərəzlilik” yaşadıqlarını bildiriblər”.

Bildirilib ki, Harvard tələbələrini qorumaq əvəzinə, cinayət nisbətlərinin artmasına, irqçi praktikalarının tətbiqinə, xarici hökumətlərdən və donorlardan çoxlu nağd pul qəbul etməsinə icazə verib. Harvardda cinayət nisbətləri 2022-ci ildən 2023-cü ilə qədər 55 faiz artıb. 2022-ci ildən 2023-cü ilə qədər ağır cinayətlər 295 faiz, soyğunçuluqlar isə 560 faiz artıb. Harvard 2020-ci ilin yanvar ayından etibarən xarici hökumətlərdən 151 milyon dollar alıb. Eyni dövrdə xarici donorlardan alınan ümumi 1,1 milyard dolların 13 faizindən çoxunu təşkil edir.

## Məhkəmə çəkişməsi...

Harvard Universiteti isə hökumətin qərarının qanunsuz olduğunu bildirib. Universitetin yaydığı açıqlamada göstərilir ki, Universitet 140-dan çox ölkədən olan beynəlxalq tələbə və tədqiqatçıları qəbul etmək öhdəliyini qoruyur. Bu cəza xarakterli addım həm Harvard icmasına, həm də ölkəyə ciddi zərər verə bilər. Eyni zamanda, bu qərar universitetin əsas akademik və tədqiqat missiyasını zəiflədə bilər.

Xatırladaq ki, bu ilin aprelində Harvard Universiteti Donald Trampın administrasiyasını məhkəməyə vermişdi. “The Harvard Crimson” tələbə qəzetinin məlumatında bildirilirdi ki, buna səbəb universitetin milyardlarla dollar dəyərində maliyyə vəsaitindən məhrum edilməsi olub. Universitet ABŞ hökumətini konstitusiyaya zidd və qanunsuz kampaniya aparmaqda ittiham edib. Harvard 2,2 milyard dollar məbləğində vəsaitin dondurulmasının qeyri-qanuni hesab olunmasını və bu qərarın ləğvini tələb edirdi.



## Harvarddan etiraz - təhlükə varsa...

“The New York Times” məsələ ilə bağlı bildirib ki, Tramp administrasiyası “geniş qeydlər tələbinin qanuniliyi” ilə bağlı davam edən yazışmalardan sonra Harvardı qərarla tanış edib. “The Guardian” isə yazıb ki, bu addım Daxili Təhlükəsizlik Nazirliyinin araşdırmasının bir hissəsidir.

Harvard sözçüsü cümə axşamı “Guardian”-a verdiyi açıqlamada hökumətin hərəkətlərini “qanunsuz” adlandırıb. “Biz Harvardın 140-dan çox ölkədən gələn və universitetimizə və ölkəmizə maddi gəlir gətirən əcnəbi tələbələrimizi və alimlərimizi qəbul etmək qabiliyyətini qoruyub saxlamağa tam sadiqik” deyib. Universitet sözçüsü bildirib ki, bu addım Harvardın akademik və tədqiqat missiyasına zərbə vurur”.

Harvardın müəllimi Pippa Norris isə “The Guardian”a açıqlamasında deyib ki, Tramp amerikalı tələbələri beynəlxalq biliklərdən səmərəli şəkildə məhrum edir, o, yumşaq gücü azaldır və buna görə də Amerikanı zəiflədir: “Və şəxsən mənim üçün bu, tədris baxımından böyük problemlər demək olacaq”.

Norris bildirib ki, tələbələrinin mühüm əksəriyyəti əcnəbilərdir. Bu baxımdan, əcnəbi tələbə qəbulu qadağası universitetin həyatına mənfi təsirlər göstərəcək. Bildirilib ki, hazırda universitetdə təxminən 6800 beynəlxalq tələbə var, onların çoxu F-1 və ya J-1 vizalarına malikdir. Eyni zamanda, Universitet 53 milyard dollardan çox vəsaitə malikdir.

Harvardın müəllimi Norris onu da bildirib ki, əgər təhlükə varsa, bu digər universitetlərə də şamil olunmalıdır: “Harvardı bir yana qoyaq, başqa beynəlxalq tələbələr niyə Amerikaya gəlsinlər? Bu addım Oksford, Kembric və bir çox başqa məktəblər üçün münbit zəmin yaradacaq”.

## “Yumşaq güc” aləti əldən çıxır...

Məsələ ilə bağlı bir məqam da diqqət çəkir - amerikalı bəzi siyasətçilər Trampın bu addımını qınayıblar - onlar düşünürlər ki, yeni administrasiyanın qərarı dünyada ABŞ-ın siyasi-diplomatik dayaqlarına mənfi təsir göstərəcək. Siyasətçilər hesab edirlər ki, Harvardda oxuyan və ABŞ-a rəğbəti olan tələbələr həm də ayrı-ayrı ölkələrdə Vaşinqtonun maraqlarının müdafiəçisi kimi çıxış edir. Bildirilir ki, Harvarda əcnəbi tələbə qəbulunu dayandırmaqla “yumşaq güc” siyasətində növbəti geriləmə müşahidə olunacaq...

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# ŞƏNBƏ ÜÇÜN NƏZM







*Nüsrət Kəsəmənli*

**GETMƏK İSTƏYİRSƏN...**

Getmək istəyirsən,
bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı.

Sən dəniz qoynuna
tullanmış çiçək,
Üstünə dalğalar atılacaqdır.
Saxta məhəbbətin, saxta sənədtək
Nə vaxtsa üstündə tutulacaqdır...

Yollartək döşənib ayaqlarına
Sənə yalvarımmı?..
Bu mümkün deyil.
Qoymaram qəlbimtək vüqarım
sına
Alçalıb yaşamaq ömür-gün deyil...

Demirəm, sən uca bir dağsan,
əyil,
Demirəm, qalıbdır əlacım sənə.
Nə səndə məhəbbət
qara pul deyil,
Nə mən dilənçiyəm əl açım sənə.

Getmək istəyirsən,
nə danış, nə din,
Yox ol xəyal kimi dumanda,
çəndə.
Nəyimi sevmişdin,
deyə bilmədin,
İndisə yüz eyib görürsən məndə...

Getmək istəyirsən,
bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı...

**ETİRAF**

***Ömür-gün yoldaşıma***

Fikirli gəlirəm,
Dalğın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm,
yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi...

Bəlkə min suçumu bilmisən
mənim,
Birini üzümə vurmamısan heç.
Eyhamla üzümə gülmüsən mənim,
Bircə yol üzümə durmamısan heç.

Hər kəs taleyilə gəlir həyata,
Demirəm, ürəyi yumşaq olmuşam.
Dəcəl balalara mülayim ata,
Səninçün ən dəcəl uşaq olmuşam.

Sənsən dağlar kimi səbrlə dözən,
Bəlkə tərəddüdlə
çox döyüşmüsən.
İsti bir sevgidən yazmışam bəzən,
Soyumuş çayımı sən dəyişmisən...

Üzümdə kədərdən bir iz görəndə
Şirinim olmusan,
Acım olmusan.
Qohumdan, tanışdan
pis üz görəndə
Sən anam olmusan,
Bacım olmusan.

Bir kövrək şerimdən
gözlərin dolub,
Nə deyim,
Özgədən çox yazıb qələm,
Nə qədər düyünlü günümüz olub,
Düyünlü qaşın görməmişəm
mən...

Bir əlin mətbəxdə
qabda-qaşıqda,
Bir gözün istidə, tüstüdə olub.
Bir əlin beşikdə
oğul-uşaqda,
Bir gözün həmişə üstümdə olub.

Yollar çarpaz-çarpaz,
Yollar qarışıq...
Gecə yol gəlirəm qulağı səsdə.
Bizim pəncərədən süzülən işıq -
Gözünün nurudur yolumun üstə.

Fikirli gəlirəm,
Dalğın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm,
yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi.

**GECİKDİ BU YAĞIŞ...**

Daha bu yağışa otlar göyərməz,
Daha bu yağışda lalələr sönməz.
Bu yağış buludun yükü deyil ki,
Bu yağış bir simurq tükü deyil ki,
Yandırsan ömür-gün qayıda geri,
İndi ürəyimiz - köhnə yurd yeri,
Daşı nəmlidir.
Sevgimi uçurub bir ümid kimi
Torpağı qəmlidir,
Daşı qəmlidir...
Sırsıra asılıb gül budağından,
Bahan itirdin,
Yayı ötürdün;
Qış gəldi,
yatmısan fil qulağında...
Beləcə gün keçdi,
zaman gecikdi,

Gecikmiş istəyi nədi göylərin?
İndicə buludlar töküləcəkdir,
Ürəyi doludur xatirələrin.
Dindirsən,
təəssüf hönkürəcəkdir.

Qıvrılıb yatıbdır dolama yollar,
-Boynuna dolanar o ilan kimi
Dəymə,
qoy uyusun nisgil arzular
Yax andan tutacaq ayılan kimi...

Bu göz yaşlarıyla,
Bu yalvarışla
Yolların tozunu yatırmaq olmaz,
Küsülü illərin istəklərini
Daha mənzilinə çatdırmaq olmaz.

Yumaz ki dünəni selləmə yağış,
Bayılmış dünənə çilləmə yağış...
Gecikdi bir arzu,
güman gecikdi.
Gecikdi bir yağış,
yaman gecikdi.

Yaşadıq nigaran, qulağı səsdə,
Ömürdən ötəri cığırlar keçdi.
Bizim ümidimiz axır nəfəsdə
Nə qədər çırpınsa
yenə də heçdi...

Daha oyanışa güman ki, yoxdu,
De, nəyə gərəkdir bu son bəraət?
Səndən bir məhəbbət uman ki,
yoxdu.
O güvəncli dağlar marala qaldı,
O məxmər çəmənlər sarala qaldı,
Vaxtında yağmadı, nur çiləmədi
Buludlar qarala-qarala qaldı...

Məni bu günündə soraqlama sən,
Məni dünənində taparsan indi.
Bu günə qədərki kədər mənimki,
Bu gündən sonrakı kədər
sənindir.
Qovmadın başından
duman gecikdi,
Gecikdi bu yağış,
yaman gecikdi...

**SƏN DEMƏ, TƏZƏDƏN SEVMƏK OLARMIŞ...**

Sən demə, təzədən sevmək
olarmış,
Tale də təzədən gülə bilərmiş.
Küsüb gözüyaşlı gedən
məhəbbət
Peşiman-peşiman gələ bilərmiş.

Ürək bulud kimi boşalırsa da
Demək, bulud kimi təzədən
dolur,
Sonuncu şöləsi titrəyən şamdan
Ayrı bir şamı da yandırmaq olur.

Sən demə, təzədən
sevmək olarmış,
Köhnə yaraları vaxt, zaman silir,
Kəsilən budaqla ölən ağaclar
Təzə pöhrələrlə dirilə bilər.

Ağlaya-ağlaya dünyaya gəlib,
Biz ana südüylə gülməmişikmi?!
Hər axşam sapsarı batan Günəşi
Hər səhər təzə-tər
görməmişikmi?!

Sən demə, təzədən
sevmək olarmış,
Sevgi fursət deyil quş kimi uça.
Nə də kölgədir ki,
qaçasan qova,
Ya da sən qovasan,
o səndən qaça...

Çıxarsan qəlbindən ötən sevgini,
Bir gün də tənhalıq sıxacaq səni.
Kiməsə etdiyin yaxşılıq kimi
Məhəbbət qarşına çıxacaq sənin.

İlk sevgi yuvadan düşən
quşcuğaz,
Körpə qanadları pöhrələnməyib.
Məcnunun ahıyla uçan məhəbbət
Min hiylə əliylə yerə enməyib...

Mən ki, görməmişəm
sevgini susan,
Məhəbbət zirvədə
bəslənən qarmış.
Kim deyir, bir dəfə sevilir insan,
Sən demə, təzədən
sevmək olarmış...

**SƏNİ UNUTSAM...**

Mən səni unuda bilmirəm, axı,
Unutsam, nələri unudam gərək,
Göylərə baxmışıq aylı gecədə,
Unutsam göyləri unudam gərək.

Dənizi unudum, ya dalğaları,
Xatirən yadımdan çıxaydı, barı.
Payızda xəzanı, qışdasa qarı,
Baharda gülləri unudam gərək.

De, necə unudum mən səni necə,
Sevgi durna deyil, payızda köçə,
Yuxuma gəlirsən mənim
hər gecə,
Ayları, illəri unudam gərək.

Sənin xəyalındır həsrətlə baxan,
Adındır hər saat qarşıma çıxan,
Qarışıb şəklinə gözümdən axan,
Yağışı, selləri unudam gərək.

Sinəmdə peşiman ürəyim qaldı,
Uçdun, əllərimdə lələyin qaldı,
Nələri itirdim, bax, nəyim qaldı,
Nələri, nələri unudam gərək.

# Emosional cavabların idarə edilməsi...

İdman hər kəsin həyatında böyük rol oynayır. Belə ki, idmanın uşaqlara akademik səviyyədə fayda verdiyi elmi faktdır. Bu idman növləri içərisində futbol xüsusilə fərqlənir. Futbol uşağın zehni, emosional və sosial keyfiyyətlərinin inkişafı üçün təməl rolunu oynayır.

## Futbolun insanlara öyrədə biləcəyi çox məqam var

### Dostluq, qardaşlıq, kollektiv əmək...

Futbolun insanlar üçün öyrədə biləcəyi çox məqam da var: sahiblik, münaqişələrin həlli, emosional cavabların idarə edilməsi, konstruktiv tənqidi qəbul etmək, başqalarına hörmət etmək, motivasiya yaratmaq və s. Bu baxımdan futbol aktiv həyat tərzini təşviq edir, ünsiyyət bacarıqlarını inkişaf etdirir. Futbolda fəaliyyətin kollektiv forması onlarda dostluq, qardaşlıq, qarşılıqlı yardım xüsusiyyətlərini tərbiyə etməklə bərabər, başqa lazımi keyfiyyətləri formalaşdırır. Bu isə futbolçularda əsaslı əhəmiyyət daşıyan şəxsi marağın kollektiv maraqlara tabe olmaq kimi vərdişlərini aşılayır.

Mayın 25-i Ümumdünya futbol günü kimi qeyd olunur. Bu əlamətdar gün Birləşmiş Millətlər Təşkilatının (BMT) qərarına əsasən təsis edilib. Qərar planetin ən populyar idman növü olan futbola hörmət əlaməti kimi qəbul olunub.

### “Bütün dünyanı zəbt etmiş”

Futbol üzrə dünya çempionatını adətən ümumi olaraq “Mundial” adlandırırlar. Bu, ispan mənşəli sözdür. Mənası “bütün dünyanı zəbt etmiş, bürümüş” deməkdir. Bu ifadə pərəstişkarlar tərəfindən 1982-ci ildən etibarən işlədilməyə və qəbul edilməyə başlanıldı. Bundan sonra kəlmə daha da genişləndi və nəticədə futbol üzrə dünya çempionatı bu cür adlandırıldı.



### Futbol geyimlərinin nömrələnmə tarixi

Futbol geyimləri 90 ildən çoxdur ki, nömrələnir. İlk dəfə rəqəmləmə 1928-ci ildə “Çelsi” ilə “Arsenal”ın görüşündə baş vermişdi. Statistikaya uyğun olaraq London klublarının geyim nömrələri 1-dən 11-ə qədər nömrələnir. Ənənə tam olaraq 10 il sonra ümumi xarakter aldı. Bu gün isə məhz nömrələnmə oyunçuların özünü təsdiqi və dünya ulduzlarının fərqləndirilməsi üçün gərəklidir.

### Başla oyun...

Bu element yalnız futbola xasdır. İdmanın oyun növlərinin heç birində topun yerdəyişməsi başla edilmir. Oyunun böyük hissəsinin yerdə getdiyinə baxmayaraq, başla oyun futbolun ayrılmaz tərkib hissəsi olaraq qalır, futbolçular öz oyun rollarından asılı olmayaraq, həm hücumda, həm də müdafiə olunarkən havada başla məharətlə oynamağı bacarmalıdırlar.

### Niyə 11 nəfər?

Futbol komandasında oyunçuların sayının 11 nəfərdən ibarət olması fikrini ilk dəfə ingilislər, daha dəqiq desək, ingiltərəli tələbələr irəli sürüblər.

Futbolun yaranma tarixi 1863-cü il hesab olunur. Çünki həmin ildə ilk Futbol Assosiasiyası yaradılıb və indiki qaydalara uyğun gələn qaydalar tətbiq olunub. Bu qaydalar içərisində Kembric tələbələrindən qalan bircə qayda var idi, o da - oyunçuların sayının 11 nəfər olması. Bəs kembricli tələbələr nə üçün - “komandada oyunçuların sayı 11 nəfər olsun”- qaydasını qoyublar? O zamanlar Kembric Universitetinin yataqxanasında otaqlar 11 çarpayılıq idi. Yəni hər otaqda 11 tələbə qalırdı. Universitetdə isə tələbələr otaqlar arasında futbol yarışması keçirirdilər. Necə deyərlər: - “otaq otağa qarşı, yəni - 11 nəfər 11 nəfərə qarşı”.

***Yeganə BAYRAMOVA***

# Azercell-in prezidenti “GSMA M360 Eurasia 2025” konfransında inklüziv rəqəmsal transformasiya mövzusunda çıxış edib







21-22 may tarixlərində GSMA-nın təşkilatçılığı ilə Daşkənddə keçirilən “M360 Eurasia 2025” forumu telekommunikasiya və texnologiya üzrə sənaye liderlərini bir araya gətirib. Tədbir çərçivəsində regionda rəqəmsal inkişaf imkanlarının genişləndirilməsi, inklüziv rəqəmsal transformasiyanın təşviqi, rəqəmsal infrastrukturun inkişafı, investisiya imkanları və dayanıqlı tərəfdaşlıqların qurulması kimi aktual mövzular müzakirə olunub.

“Azercell Telekom” MMC-nin prezidenti Zərinə Zeynalova Özbəkistanın Rəqəmsal Texnologiyalar naziri cənab Şerzod Şermatov, GSMA-nın baş direktoru Vivek Badrinath və Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU) baş katibinin müavini Tomas Lamanauskas kimi yüksək vəzifəli şəxslərlə yanaşı forumun açılış sessiyasında çıxış edib.

“Rəqəmsal transformasiya sərhəd tanımır. Bu yol ümumi vizyon, regional əməkdaşlıq və birgə səylər tələb edir”, - deyə Zərinə Zeynalova bildirib.

Z. Zeynalova Azercell-in son iki il ərzində Bakıda ev sahibliyi etdiyi “M360 Eurasia”nın nəticələrinə toxunaraq formalaşmış texnoloji dinamikanın davam etdirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra “Avrasiyanın rəqəmsal potensialı” mövzusuna həsr olunmuş panel müzakirəsində iştirak edən Z. Zeynalova Azercell-in şəbəkə modernizasiyası üzrə genişmiqyaslı layihəsini və Aztelekom-un “Onlayn Azərbaycan” təşəbbüsünü ölkənin rəqəmsal transformasiyasını təşviq edən uğurlu nümunələr kimi təqdim edib.

Eyni zamanda, Z. Zeynalova dayanıqlı telekommunikasiya infrastrukturunun qurulması, süni intellekt texnologiyalarının tətbiqi, yeni nəsil şəbəkələrin yaradılması və ən əsası insan kapitalına yönəlmiş uzunmüddətli investisiyaların strateji əhəmiyyətini xüsusi olaraq qeyd edib: “Məqsədimiz innovasiya və peşəkar insan resursları əsasında formalaşan gələcək nəsil rəqəmsal ekosistemi qurmaqdır.”

M360 Eurasia 2025 tədbiri qlobal telekommunikasiya və texnologiya sektorunun diqqət mərkəzində olub. Sənaye liderlərini bir araya gətirən bu platforma güclü kommunikasiya, strateji əməkdaşlıq və innovativ həllər istiqamətində fikir mübadiləsi üçün geniş imkanlar yaradıb.

Tədbir çərçivəsində A-Solutions EPT MMC-nin Baş İcraçı Direktoru Həsən Həsənov “Rəqəmsal inkişafda tərəfdaşlıqların rolu” mövzusuna həsr olunmuş panel müzakirəsində əsas spiker qismində çıxış edib.

Panelin digər iştirakçıları sırasında JazzCash (əvvəlki MobiCash) şirkətinin prezidenti Murtaza Ali, B.EST Solutions şirkətinin baş icraçı direktoru Yana Krimpe və Özbəkistan İnformasiya Texnologiyaları Parkının Baş İcraçı Direktoru Abdulakhad Kuchkarov da yer alıblar.

Çıxışı zamanı Həsən Həsənov strateji tərəfdaşlıqların verdiyi dəyər və yaratdığı imkanları vurğulayaraq deyib: “A-Solutions olaraq inanırıq ki, rəqəmsal inkişafın əsasında düzgün qurulmuş tərəfdaşlıqlar, ortaq dəyərlər və aydın məqsədlər dayanır. Müasir dövrdə rəqabət artıq ayrı-ayrı şirkətlər arasında deyil, bütöv ekosistemlər arasında gedir. Ən böyük nailiyyətlər qarşılıqlı etimad və ortaq məsuliyyətə əsaslanan əməkdaşlıqla mümkündür. Belə tərəfdaşlıqlar məhsulu daha geniş bir platformaya, ideyanı isə yeni inkişaf mərhələsinə daşıya bilər. Biz bu yanaşmanı bir strateji seçim olmaqla yanaşı, davamlı uğura aparan yol kimi də dəyərləndiririk”.

O, həmçinin A-Solutions EPT MMC-nin əsas missiyasının ölkədə nağdsız əməliyyatları təşviq etməklə rəqəmsal iqtisadiyyatın inkişafına töhfə vermək olduğunu bildirib.

Forum çərçivəsində iştirakçılar sektorlararası əməkdaşlığın gücləndirilməsi, rəqəmsal suverenliyin təmin olunması və regionun texnoloji liderlik potensialının artırılması istiqamətində fikir mübadiləsi aparıblar. “M360 Eurasia 2025” Avrasiyanın Asiya ilə Avropa arasında strateji rəqəmsal körpü rolunu bir daha təsdiqləyib.

Xatırladaq ki, A-Solutions EPT MMC Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən lisenziyalaşdırılmış ilk elektron pul təşkilatıdır. “Azercell Telekom” MMC-nin törəmə şirkəti olan A-Solutions fintex sahəsində təqdim etdiyi innovativ məhsul - akart rəqəmsal kartı ilə telekommunikasiya və maliyyə texnologiyalarını bir araya gətirərək həm yerli, həm də beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirir.

Qeyd edək ki, Azercell Telekom indiyədək iki dəfə M360 Eurasia tədbirinə baş sponsor qismində dəstək verib, builki tədbirdə isə şirkətin rəhbər heyəti panel müzakirələrində fəal iştirakını davam etdirib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4955**
**Sifariş: 1056**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova